# Seçim haqqı türk xalqınındır

Türkiyədə seçkilərin nəticələri beynəlxalq siyasətə yeni düzən, yeni çalar gətirəcək



**“Mayın 14-də keçiriləcək tariximizin ən vacib seçkisində Allahın köməyi ilə yenə qələbə qazanacağıq”.**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tviterdə yazıb. O bildirib ki, seçkilərin nəticələrinə əsasən gənclər, yaşlılar, qadınlar və kişilər daxil olmaqla, 85 milyonluq xalqın hər biri qələbə qazanacaq:

(səh.4)



# Sülh müqaviləsinin mətni müzakirə ediləcək

**Mayın 19-da Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan arasında danışıqlar aparılacaq.**

Bunu Ermənistan xarici işlər nazirinin müavini Mnatsakan Safaryan mətbuata açıqlamasında deyib.

Onun sözlərinə görə, danışıqlar masasında sülh müqaviləsinin mətni olacaq.


❒ № 80 (5841) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 11 may 2023-cü il (cümə axşamı)




# Türkiyə Azərbaycanın "Su-25" döyüş təyyarələrini modernləşdirəcək

**Türkiyə Azərbaycanın ”Su-25” tipli döyüş təyyarələrini modernləşdirəcək.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə Prezidenti yanında Müdafiə Sənayesi İdarəsinin rəisi İsmayıl Dəmir bildirib.

O qeyd edib ki, layihə çərçivəsində müəyyən silah sistemlərinin inteqrasiyası, ağıllı sistemlərin əlavə edilməsi prosesi nəzərdə tutulur və bu istiqamətdə işlər həyata keçirilir.



# Ulu Öndərin xatirəsi anıldı

Prezident İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Heydər Əliyevin Fəxri xiyabanda məzarını ziyarət ediblər

**Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümüdür.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ulu Öndərin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər. Burada fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ümummilli Liderin xatirəsini dərin hörmətlə yad etdilər.

Sonra dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub.

# Şuşa gözəl günlərinə dönür

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhərdə aparılan tikinti işləri ilə tanış olublar



**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olublar.**

Dövlət başçısı və birinci xanım həmçinin 17 binadan ibarət 2-ci yaşayış kompleksinin təməlqoyma mərasimində, Heydər Əliyev və 8 Noyabr küçələrinin kəsişməsində lövhələrin, Şuşa Hotel-Konqres Mərkəzi Kompleksinin açılışlarında, Prezident İlham Əliyevin tapşırığına əsasən, Şuşa şəhərində dövlət xidmətləri mərkəzinin yenidənqurma və təmir işlərinə başlanılması ilə bağlı tədbirdə iştirak ediblər.

Daha sonra Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində burada təşkil edilən "Heydər Əliyev və Qarabağ" fotosərgisi və Gül Festivalı ilə tanış olublar. Sonra Prezident və birinci xanım Xurşidbanu Natəvan, Zəfər, Qarabağ və Xan Şuşinski küçələrinin kəsişməsində lövhələrin açılışlarında iştirak ediblər.

(səh.3)

# Çavuşoğlu Lavrovla danışıb

Nazirlər Azərbaycan-Ermənistan normallaşma prosesini müzakirə edib



**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Moskvada rusiyalı həmkarı Sergey Lavrov ilə Azərbaycan-Ermənistan və Türkiyə-Ermənistan normallaşma prosesini müzakirə edib.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə, o, jurnalistlərə açıqlamasında bildirib. O qeyd edib ki, həmçinin iranlı həmkarı ilə də Azərbaycana dair məsələləri müzakirə edib.

# Vaşinqtonda bir addım irəli

Danışıqlarda sülh müqaviləsi üzrə bəlli maddələrdə razılaşmalar əldə edilib



**Xarici işlər naziri Ceyhun Bayramov mayın 1-5 tarixlərində Vaşinqtonda Ermənistan XİN başçısı ilə keçirilən ardıcıl görüşlərdən danışıb.**

Nazir Vaşinqton danışıqlarında bir sıra məsələlərdə ümumi razılıq əldə olunduğunu vurğulayıb. C.Bayramov deyib ki, ABŞ-da sülh müqaviləsi ətrafında danışıqlar aparılıb və sülh müqaviləsi ilə bağlı təşəbbüslər Azərbaycan tərəfindən irəli sürülüb.

Nazir bildirib ki, ABŞ vasitəçiliyi ilə Ermənistan yenidən danışıqlar masasına qayıdıb...

(səh.4)



# Gürcüstan Prezidenti Putinin qərarını qəbuledilməz adlandırıb

**Gürcüstan Prezidenti Salome Zurabişvili Ukraynadakı vəziyyətlə əlaqədar Rusiya Prezidenti Vladimir Putinin viza rejimini ləğv etməsinə dair qərarını qəbuledilməz adlandırıb.**

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə Gürcüstan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.

*Qeyd edək ki, Vladimir Putin Rusiya ilə Gürcüstan arasında viza rejiminin ləğvinə dair sərəncam imzalayıb. Sərəncama əsasən, mayın 15-dən Gürcüstan vətəndaşları üçün viza rejimi ləğv olunur. Bundan sonra Gürcüstan vətəndaşları 90 gün Rusiyaya vizasız səyahət edə biləcək.*

# Vəfat edən olmayıb

Daha 11 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 11 yeni yoluxma faktı qeydə alınıb, 45 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 831 599 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 821 201 nəfər müalicə olunaraq sağalıb, 10 260 nəfər vəfat edib, aktiv xəstə sayı 138 nəfərdir.

*Ölkədə son sutka ərzində 827, hazırkı dövrədək isə 7 600 248 test aparılıb.*

# 50 manat cəriməni başa düşdük, lazımdır

Amma elə küçələr var ki, zibil qutularının sayı çox azdır



**Bakıda bir sıra küçələrdə çəkiliş zamanı ərazilərdə zibil tullantılarının olması üzə çıxıb.**

Bəzi şəxslər zibilləri qutuya atmaq əvəzinə onları avtobus dayanacaqlarının dəmirlərinə bərkidir və ya yerə atırlar.

(səh.7)



# Vardanyan artıq ölü fiqurdur

Xankəndideki rüsvayçı mitinq göstərdi ki, ermənilər Kremlin maşasını ciddi qəbul etmirlər

(səh.3)



# Brüssel və Kişinyov görüşündə də ciddi nəticə olmayacaq

Qarabağda praktik addımlarla prosesi tamamlamaq ən doğru variantdır

(səh.5)



# Şuşa Zəfərimizin tacıdır

## Prezident İlham Əliyev: "Elə gənclər yetişdirmişik ki, bu gənclər dağı dağ üstə qoya bilər"

**Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə Şuşa şəhərindən müraciət edib. Dövlət başçısı deyib ki, "Heydər Əliyev İli" ilə bağlı ilin əvvəlindən bu günə qədər həm ölkəmizdə, həm müxtəlif ölkələrdə bir çox tədbirlər keçirilib və keçiriləcək.**

Ölkə rəhbərinin sözlərinə görə, Azərbaycan öz böyük oğlunun xatirəsinə böyük hörmətlə yanaşır: "Mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam. Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişdilər. Bu binanın damında Azərbaycan Bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi. Bildiyiniz kimi, ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atıb".

**"Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı azad görmək idi"**

Prezident bildirib ki, Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi: "Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik. Heydər Əliyev bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət edib. Sovet Azərbaycanı dövründə - 1969-82-ci illərdə Azərbaycanı ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə gətirib çıxarıb. Müstəqil Azərbaycanın sənaye və iqtisadi potensialı məhz o illərdə formalaşıb. Məhz o illərdə yetişmiş kadrlar müstəqil Azərbaycanda və bu gün də fəaliyyət göstərərək bizim ümumi inkişafımızı təmin edirlər. Heydər Əliyev 1982-87-ci illərdə Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun üzvü və Sovet Hökuməti sədrinin birinci müavini kimi daim Azərbaycana öz diqqətini, qayğısını göstərirdi. Məhz bu qayğı və diqqət nəticəsində Azərbaycan o illərdə də uğurla inkişaf edirdi. Azərbaycan xalqının faciələri Heydər Əliyevin siyasi hakimiyyətdən getməsindən sonra başlayıb. 1987-ci ildə istefa verməsindən iki həftə keçməmiş erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırdılar və Azərbaycan xalqının faciələri o gündən başlayıb". Ölkə rəhbəri qeyd edib ki, Heydər Əliyevin gücü, müdrikliyi, ümumiyyətlə, Heydər Əliyev amili Azərbaycanı bir çətir kimi qoruyurdu: "Baxmayaraq ki, siyasi fəaliyyətdən kənarda qalıb, amma Ulu Öndər hər zaman Azərbaycanın maraqları ilə yaşayırdı, ürəyi Azərbaycanla bir döyünürdü və xalqımız üçün ağır günlərdə - 20 Yanvar faciəsindən sonra yenə də xalqımızın haqq səsini dünyaya məhz o çatdırmışdı. Yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək öz haqq səsini ucaltmış, sovet hökumətinin, Sovet İttifaqının rəhbərliyinin bu qanlı əməlini pisləmiş və bu qırğınla bağlı dünyaya bəyanat vermişdir. Mən onun yanında idim, o günü yaxşı xatırlayıram, həm faciəvi gün idi, eyni zamanda qürurverici bir gün idi. Moskvada yaşayan azərbaycanlılar daimi nümayəndəliyin önünə toplaşmışdılar və Heydər Əliyev binaya yaxınlaşanda sanki bir canlı dəhliz açılmışdı. Baxmayaraq ki, o, bütün vəzifələrdən çıxarılmışdır, ona qarşı Azərbaycanda ovaxtkı rəhbərlik tərəfindən çirkin kampaniya aparılırdı, sovet mətbuatında da çirkin kampaniya aparılırdı, ancaq Azərbaycan xalqının qəlbində o, daim böyük lider kimi yaşayırdı".

**"Müstəqilliyə gedən yol da məhz Naxçıvandan başlamışdı"**

Dövlət başçısı vurğulayıb ki, Heydər Əliyevin gələcək fəaliyyəti üçün Naxçıvan dövrünün böyük əhəmiyyəti var: "Xalq məhz onu özünə rəhbər seçdi, bu, demokratiyanın əsl təntənəsi idi. Azərbaycan hakimiyyəti - həm kommunist, həm dırnaqarası demokrat hakimiyyəti hər vəchlə çalışırdı ki, Heydər Əliyev Naxçıvandan uzaqlaşdırılsın. Naxçıvan demək olar ki, blokadada boğulurdu, onlar isə Naxçıvana qarşı təxribatlar törədirdilər, desant göndərirdilər, çevrilişə cəhd edirdilər. Sanki istəyirdilər ki, Naxçıvan da işğal altına düşsün. Ancaq xalq buna imkan vermədi, öz lideri ətrafında sıx birləşmişdi. Bir daha demək istəyirəm, məhz Heydər Əliyevin qətiyyəti, fəaliyyəti nəticəsində Naxçıvan torpaqları erməni işğalına məruz qalmadı. Müstəqilliyə gedən yol da məhz Naxçıvandan başlamışdı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Bayrağı Naxçıvan Ali Məclisinin sessiyasında Dövlət Bayrağı kimi təsis edilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmışdır, Sovet İttifaqının və sonra artıq Rusiyanın hərbi birləşməsi olan motoatıcı diviziya Naxçıvandan çıxarılmışdı. Heydər Əliyev uzun illər ərzində xidmət etdiyi Sovet İttifaqı Kommunist Partiyasının sıralarından çıxmışdı və faktiki olaraq müstəqilliyə gedən yol Naxçıvandan başlamışdı".

> "Azərbaycan Ulu Öndərin yolu ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib"

**"Məhz onun qoyduğu yolla bu gün Azərbaycan uğurla gedir"**

Prezident İlham Əliyev deyib ki, Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti kimi misilsiz xidmətləri var: "Məhz onun qoyduğu yolla bu gün Azərbaycan uğurla gedir. Burada onun fəaliyyəti təkcə iqtisadi islahatlarla məhdudlaşmırdı. Milli-mənəvi dəyərlərin qorunmasında onun çox böyük rolu olmuşdur, gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində çox böyük rolu olmuşdur. Məhz onun təşəbbüsü ilə 1996-cı ildə Azərbaycanda birinci Gənclər Forumu keçirilmişdir. O vaxtdan bu günə qədər müntəzəm olaraq Gənclər Forumu keçirilir. Qarabağı, Zəngəzuru azad edən məhz gənclər olmuşdur, ovaxtkı gənclər və son 20 il ərzində yetişmiş gənclər. Heydər Əliyev öz xalqına sıx bağlı olan bir adam idi. Məhz onun təşəbbüsü ilə Azərbaycan dilinin qorunmasına dair önəmli addımlar atılmışdır, müvafiq sərəncamlar imzalanmışdır. Azərbaycan dilinin qorunması milli kimliyimizin qorunması deməkdir. Azərbaycan dili çox zəngin dildir. Dünyada 50 milyondan çox insan üçün Azərbaycan dili Ana dilidir. Məhz Ulu Öndərin təşəbbüsü ilə Ana dilimizin qorunması istiqamətində atılan addımlar bu gün də davam etdirilir və bu, daim davam etdiriləcəkdir. Heydər Əliyevin ordu quruculuğu sahəsində çox böyük xidmətləri olmuşdur. Məhz onun fəaliyyəti nəticəsində nizami ordu yaradılmışdır. Düzdür, o vaxt bizim maliyyə imkanlarımız məhdud idi, orduya lazımi qədər vəsaitin ayrılması mümkün deyildi. Çünki ölkə qarşısında duran problemlər çox ciddi idi və bir milyondan çox insan evsiz-eşiksiz qalmışdı, ağır vəziyyətdə yaşayırdı. Neft Fonduna yığılan birinci vəsait yenə də Heydər Əliyevin təşəbbüsü ilə məhz keçmiş məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına istiqamətləndirildi. Birinci qaçqın şəhərciyi məhz o vəsaitlə inşa edilmişdir. Vəsaitin qıtlığına baxmayaraq, ordu quruculuğu üçün çox ciddi addımlar atılmışdır".

**"Gənc nəsil belə yetişməlidir və biz gənc nəsli belə yetişdiririk"**

Dövlət başçısı əlavə edib ki, Ulu Öndərin yolu ilə gedərək istənilən sahədə inkişafdan, uğurlardan bəhs etmək olar: "Əlbəttə ki, bizim gördüyümüz bütün işlərin təməlində milli-mənəvi dəyərlərimizə bağlılıq dayanır. Bu gün dünyada, dünyanın müxtəlif yerlərində müxtəlif meyillər baş verir, müxtəlif tendensiyalar müşahidə olunur, dırnaqarası yeni dəyərlər meydana çıxır. Biz isə ənənəvi dəyərlərə sadiq qalaraq öz gələcəyimizi çox möhkəm milli-mənəvi təməl üzərində qururuq. Gənc nəsil belə yetişməlidir və biz gənc nəsli belə yetişdiririk. Gənc nəsil milli-mənəvi dəyərlərə bağlı olmalıdır, öz ədəbiyyatına, musiqisinə, incəsənətinə bağlı olmalıdır və biz bunu görürük, biz gəncləri belə yetişdiririk. Elə gənclər yetişdirmişik ki, bu gənclər dağı dağ üstə qoya bilər və əslində, bunu da etdilər. İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi. Biz elə bir gənc nəsil yetişdirdik ki, onlar həm yüksək mənəvi, həm də yüksək fiziki keyfiyyətlər göstərərək, uzun illər ərzində işğal altında olan torpaqları azad etdilər və Şuşa kimi alınmaz qalanı faktiki olaraq yüngül silahlarla, əliyalın azad etdilər. Nə idi bizi qabağa aparan? Ləyaqət və ruh! Əlbəttə, biz ordu quruculuğu işində sistemli fəaliyyət göstərirdik və bu gün də göstəririk. İkinci Qarabağ müharibəsindən sonra biz dayanmadıq, əksinə, irəliyə gedirik. Bu ilin dövlət büdcəsinə əlavələr ediləcək, o əlavələrin böyük bir hissəsi yenə də hərbi məqsədlər üçün nəzərdə tutulur. Nə üçün? Çünki biz daim hazır olmalıyıq. Təhdidlər artır, təhlükələr artır və biz hər bir təhlükəni dəf etməyə qadir olmalıyıq. Bu gün də belədir. Azərbaycan Ordusu dünyanın ən güclü ordularının sırasındadır - həm təchizat, həm döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib. 44 gün ərzində bir nəfər də olsun geri addım atmayıb, bir nəfər də olsun fərari olmayıb. Bizim ordumuz budur. Bizim xalqımız budur. Çünki ordu xalqın bir hissəsidir. Orduda xidmət edən xalqın övladlarıdır, bizim yetişdiriyimiz uşaqlardır. Biz belə gözəl uşaqlar yetişdirmişik ki, onlar düşməni burada, Şuşada əliyalın məğlub edib, düşməni torpaqlarımızdan çıxarıb, bizim qürur rəmzimiz olan bayrağımızı, bax, bu binaya və azad edilmiş bütün başqa torpaqlarda qaldırıb. Ordu quruculuğu bu gün lazımi səviyyədə təmin edilir və bundan sonra da təmin ediləcək".

**"Zəfər hər birimizin üzərinə əlavə məsuliyyət qoyur"**

Prezident vurğulayıb ki, Qarabağı azad görmək Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının əsas arzusu idi: "Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!". Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı. Bu gün Ulu Öndərin əziz xatirəsinə hörmət edərək biz, bax, bu Zəfərə, bu Qələbəyə hər zaman layiq olmalıyıq, hər birimiz, hər bir yerdə. Bu Zəfər eyni zamanda hər birimizin üzərinə əlavə məsuliyyət qoyur. Biz bu Zəfərə layiq olmalıyıq. Əminəm ki, belə də olacaq. Bu gün Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, biz öz doğma torpaqlarımızda qururuq, yaradırıq. Qarabağın və Zəngəzurun bərpası missiyasını da uğurla icra edəcəyik. Necə ki, Ulu Öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik, eləcə də mülki missiyamız - bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik. Mən əminəm ki, bu gün atamın ruhu şaddır, bu gün bizim bütün əcdadlarımızın ruhu şaddır. Biz elə etməliyik ki, öz fəaliyyətimizlə daim onların ruhunu şad edək".

İsmayıl

# Masada Zəngəzurla, ermənilərin taleyi var

## Ölkə başçısı bütün prosesləri əks etdirən mesajlarla dolu çıxış etdi



**"Bizim uzunmüddətli strategiyamız çox aydındır və daxili resurslara hesablanıb. Azərbaycan Ulu Öndərin yolu ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib".**

Bu barədə Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində bildirib.

Dövlətimizin başçısı deyib: "Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Çünki güclü iradəmiz var, güclü ordumuz var və eyni zamanda güclü imkanlarımız var".

Ölkə başçısı bildirib ki, həm təchizat, həm döyüş qabiliyyəti nöqteyi-nəzərdən Azərbaycan Ordusu dünyanın ən güclü ordularının sırasındadır: "Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib. 44 gün ərzində bir nəfər də olsun geri addım atmayıb, bir nəfər də olsun fərari olmayıb. Bizim ordumuz budur. Bizim xalqımız budur. Çünki ordu xalqın bir hissəsidir. Orduda xidmət edən xalqın övladlarıdır, bizim yetişdiriyimiz uşaqlardır".

**Ölkə başçısının çıxışını dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə bildirib ki, Prezident çıxışı ilə yeni siyasi strategiyanı davam etdirdiyini açıqladı:** "Bu, onunla əlaqədardır ki, hazırda Zəfər günü, faşizm üzərində qələbə, bir az ümumi ictimai-siyasi vəziyyətə baxsaq, sülh prosesi və masada Zəngəzurla, ermənilərin taleyi var. Ölkə başçısı da məhz bütün prosesləri əks etdirən mesajlarla dolu çıxış etdi. Həmçinin bu çıxışla Azərbaycana və onun strategiyasına qarşı cəbhə alan güclərə qarşı ciddi bir mövqe ortaya qoyuldu. Digər tərəfdən, rəsmi Bakı ilə hədə dilində danışanlara bir mesaj verildi ki, bu, keçərli deyil.

Bu isə çox önəmlidir. Həmçinin Azərbaycan Ordusunun üzərindən,"biz gücümüzü paradda yox, müharibə meydanlarında göstərmişik" mesajının dalğalanması, daha yüksək bir çatdırma üsulu oldu. Mesajın yönəldiyi güc və ünvan isə hamıya bəllidir. Bu mənada Prezidentin çıxışında ən önəmli nüans, qalib gəlmişik və bunun üçün yetərli imkanlarımız var xəttidir.

Yəni cənab Prezident "biz Azərbaycanın daxili, xarici, hərbi, siyasi proseslərini, gələcəyə yönəlik addımlarını qalibiyyət üzərinə inşa etmişik və bu, davam edəcək" mesajı verirdi".

Nihat Müzəffər

# "Türkün yolu Zəngəzurdan, Qarabağdan keçir"

## Çavuşoğlu açıqlaması ilə Türkiyənin qətiyyətli mövqeyini bir daha ortaya qoydu



**"Son vaxtlar Türkiyə XİN rəhbəri Mövlud Çavuşoğlu və milli müdafiə naziri Hulusi Akarın açıqlamalarında Azərbaycanı xüsusi vurğulamaları Kamal Kılıçdaroğluna cavab xarakteri daşıyır".**

*Bunu "Şərq"ə açıqlamasında siyasi şərhçi Kənan Novruzov Mövlud Çavuşoğlunun "Türk yolu Zəngəzurdan, Qarabağdan keçir" açıqlamasına münasibət bildirərkən deyib.*

O söyləyib ki, Çavuşoğlunun bu açıqlaması Azərbaycanda yaşayan türklərə çağırış xarakteri daşıyır: "Yeni seçkilərdə iştirak etmək hüququna malik şəxslərə səsləniş idi. Bu, onları ayıltmaq məqsədi daşıyırdı ki, Türkiyənin gələcəyi Zəngəzur və Qarabağla bağlıdır. Yəni "əgər biz hakimiyyətdən getsək, türk dövlətlərinin gələcəyi parlaq olmaya bilər" fikri xalqa çatdırılır. Digər tərəfdən, bu açıqlama həm də region ölkələrinə və Zəngəzur dəhlizinin açılmasına mane olmaq istəyən dövlətlərə mesajdır. Çünki İran və Ermənistan kimi ölkələr başa düşməlidir ki, Qarabağ məsələsi daim qardaş Türkiyənin diqqətindədir". Analitikin sözlərinə görə, Çavuşoğlu bu açıqlama ilə Türkiyənin qətiyyətli mövqeyini bir daha ortaya qoydu: "Şübhəsiz ki, həm İrəvan, həm Tehran, həm də digərləri bundan dərs çıxarmalıdırlar. Geosiyasi məsələyə gəldikdə isə Zəngəzur dəhlizi həm də Mərkəzi Asiyaya gedən yolu təmin edir. Yəni bu dəhlizin açılması ilə Mərkəzi Asiyada olan türk dövlətlərinə giriş asanlaşacaq. Bu mənada Çavuşoğlu konkret ifadə edib ki, "Türkün yolu Zəngəzurdan, Qarabağdan keçir". Həmçinin Zəngəzur dəhlizinin açılması ilə böyük iqtisadi və siyasi dividendlər əldə edə bilərik.

Bu baxımdan Çavuşoğlunun açıqlaması bir neçə aspektdən xüsusi qiymətləndirilməlidir. Ümumiyyətlə, Çavuşoğlu kimi xüsusi çəkisi olan diplomatlar təsadüfi intonasiyalardan istifadə etmirlər. Bu səbəblə də, onun dediklərindən hər kəs nəticə çıxarmalıdır".

Qeyd edək ki, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Antalyada çıxışı zamanı "Türkün yolu Zəngəzurdan, Qarabağdan keçir" deyib: "Mənə maraqlıdır ki, Azərbaycandan nə istəyirlər? Azərbaycana Qarabağı işğaldan azad etmək üçün dəstək olanda daxilimizdəki bəziləri təəssüfləndi".

O bildirib ki, bu gün Türkiyə regional və qlobal siyasi aktordur: "Ukraynadakı müharibənin ən qısa zamanda bitməsi üçün səmimi səy göstərən yeganə ölkə Türkiyədir. Deyirlər ki, Türkiyə Rusiyaya qarşı sanksiyalara qoşulmalıdır. Niyə? Axı bu sanksiyalardan itirən xalq olacaq".

Nihat Müzəffər

# İrəvan sərhədin açılmasına ümidli idi

## "Nemezis" terrorçularına qoyulan abidə Ermənistan-Türkiyə münasibətlərində gərginlik yaradıb




**Ermənilər terrorçu mahiyyətlərini bir daha ortaya qoydu. Türkiyə ilə münasibətlərin normallaşma mərhələsində paytaxt İrəvanda "Nemezis" terror əməliyyatına həsr olunmuş abidənin açılışını etdilər.**

Təbii olaraq Azərbaycan və Türkiyə xarici işlər nazirləri İrəvanda "Nemezis" terror əməliyyatına həsr olunmuş abidənin açılışını pislədilər. Vurğulandı ki, terror bəşəriyyət üçün bəla və təhlükədir. Hətta Türkiyə XİN başçısı Mövlud Çavuşoğlu "Nemezis" abidəsinin sökülməsi üçün rəsmi İrəvana xəbərdarlıq etdi. Qardaş ölkənin xarici işlər naziri bildirib ki, Türkiyə Ermənistanla normallaşma prosesində güzəştlər edib. Onun sözlərinə görə, Ankara bu addımları Azərbaycan-Ermənistan normallaşma prosesinə töhfə vermək üçün edib: "Ermənistanla münasibətlərin normallaşması istiqamətində bəzi jestlər etdik. Məqsədimiz bir tərəfdən münasibətlərin normallaşması, digər tərəfdən Azərbaycan və Ermənistan arasında sülh razılaşmasına töhfə vermək idi. İrəvanda terrorçulara "Nemezis" abidəsinin qoyulması qəbuledilməzdir. Abidənin götürülməsi üçün Ermənistana lazımi müraciətləri göndərdik. Əlavə tədbirlər görməyi də düşünürük".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, "Nemezis" terrorçularına qoyulan abidə Ermənistan-Türkiyə münasibətlərində gərginlik yaradıb. Onun sözlərinə görə, halbuki iki ölkə arasında danışıqlarda irəliləyiş əldə edilib və İrəvan sərhədin açılmasına ümidli idi:** "Məlum abidə normallaşma prosesini əngəllədi. Ankara dialoqun uğurla davam etməsi üçün İrəvandan həmin abidənin götürülməsini tələb edib. Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan isə bildirib ki, abidənin qoyulması Ermənistanın daxili işidir, yəni götürməyəcəklərinə işarə edib. İkinci Qarabağ müharibəsindən sonra Bakıda Hərbi Qənimətlər Parkının salınması və orada erməni hərbçilərinin maketlərinin yerləşdirilməsi də Azərbaycanın daxili işi idi. Ancaq İrəvanın bundan şikayət etmədiyi, donos yazmadığı beynəlxalq təşkilat və dövlət qalmadı. Həmin maketləri yenidən parka qaytarmaq lazımdır. Ermənilər nə zaman "Nemezis" abidəsini ləğv edərlər, biz də maketləri yığışdırarıq. Unutmayaq ki, erməni terrorçuları 100 il əvvəl Azərbaycanın da tanınmış siyasi xadimlərini qətlə yetiriblər".

İsmayıl



yəti və çoxsaylı xidmət növləri ilə fərqlənir. Nadir memarlıq həlli ilə diqqəti cəlb edən, dörd mərtəbədən və zirzəmidən ibarət Şuşa Hotel-Konqres Mərkəzi Kompleksində 154 otaq, konfrans və ziyafət zalları, restoran, hovuz, SPA, fitnes və digər xidmət bölmələri yaradılıb. Şuşa Hotel-Konqres Mərkəzi Kompleksinin texniki təchizatı, idarəetmə və enerji təminatı sistemi beynəlxalq standartlara uyğun qurulub. Belə ki, kompleksdə tətbiq olunan müasir idarəetmə panelləri səmərəli fəaliyyəti, təhlükəsizliyi və qonaqların rahatlığını təmin edəcək. Bununla yanaşı, binada ən yüksək texniki normalara uyğun havalandırma sistemləri tətbiq olunub. Kompleksin elektrik enerjisi ilə fasiləsiz və dayanıqlı təmin olunması məqsədilə generatorlar quraşdırılıb. Həmçinin binanın dam ör-

# Şuşa gözəl günlərinə dönür

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhərdə aparılan tikinti işləri ilə tanış oldular

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olublar. Dövlət başçısı və birinci xanım həmçinin 17 binadan ibarət 2-ci yaşayış kompleksinin təməlqoyma mərasimində, Heydər Əliyev və 8 Noyabr küçələrinin kəsişməsində lövhələrin, Şuşa Hotel-Konqres Mərkəzi Kompleksinin açılışlarında, Prezident İlham Əliyevin tapşırığına əsasən, Şuşa şəhərində dövlət xidmətləri mərkəzinin yenidənqurma və təmir işlərinə başlanılması ilə bağlı tədbirdə iştirak ediblər.**

Daha sonra Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində burada təşkil edilən "Heydər Əliyev və Qarabağ" fotosərgisi və Gül Festivalı ilə tanış olublar. Sonra Prezident və birinci xanım Xurşidbanu Natəvan, Zəfər, Qarabağ və Xan Şuşinski küçələrinin kəsişməsində lövhələrin açılışlarında iştirak ediblər. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada Yuxarı Gövhər Ağa məscidinin yenidənqurma və bərpa işlərindən sonra açılışında, həmçinin məscidin ərazisində yerləşən mədrəsə binasında "Mir Möhsün Nəvvab Qarabağı - XIX əsrin ensiklopedik alimi" sərgisinin açılışında iştirak ediblər. Dövlət başçısı və birinci xanım Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Saatlı məscidinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışlarında iştirak ediblər. Muzeydə sərgilənən eksponatlar və sənət əsərləri ilə tanış olublar. Sonra Prezident və birinci xanım Şuşada Dəmir Yumruq küçəsinin lövhəsinin açılışında iştirak ediblər.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlət başçısına və birinci xanıma görülən işlər barədə məlumat verib. Bildirilib ki, 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Burada 8 binanın tikintisinə ötən il iyulun 1-də, 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Kompleksin tikintisinin bu ilin sonunda başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva 17 binadan ibarət 2-ci yaşayış kompleksinin təməlinin qoyulması mərasimində də iştirak ediblər. Dövlət başçısına və birinci xanıma kompleksdə görüləcək işlər barədə məlumat verilib. Bildirilib ki, Şuşa şəhərinin Baş planına uyğun olaraq, D4 zonasında 4,25 hektar ərazidə inşa ediləcək kompleksdə ikimərtəbəli və üçmərtəbəli binalar tikiləcək. Kompleksdəki 238 mənzildən 119-u ikiotaqlı, 119-u isə üçotaqlı olacaq. Bu yaşayış kompleksində sakinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq, istirahət, idman, uşaq əyləncə sahələri istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

Prezident və birinci xanım Şuşa Hotel-Konqres Mərkəzi Kompleksinin açılışında da iştirak ediblər. İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət başçısına və birinci xanıma Şuşa Hotel-Konqres Mərkəzi Kompleksində yaradılan şərait barədə məlumat verib.

Təməli 2021-ci il avqustun 29-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulan Şuşa Hotel-Konqres Mərkəzi Kompleksi şəhərin mərkəzində - Zəfər yolunun üzərində yerləşir. 2022-ci ildə - "Şuşa İli"ndə Karvansaray konsepti əsas götürülən layihənin inşasına başlanılıb. Tikinti işlərinə yerli və xarici şirkətlər cəlb edilib. Bina həm klassik, həm də postmodern memarlıq üslubunda layihələndirilib və mürəkkəb konstruktiv quruluşa malikdir. Bildirilib ki, beşulduzlu kompleks müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn olunub. Binanın daxili dizaynı Azərbaycanın iqliminin, mədəniyyətinin, tarixinin müxtəlifliyini və zənginliyi əks etdirir. Şuşa Hotel-Konqres Mərkəzi Kompleksinin xarici görünüşündə ornamental kompozisiyalar və milli memarlıq elementləri tətbiq olunub. Həmçinin fasadın üzlənməsində Şuşanın tarixi binalarının tikintisində işlənən yerli daşdan istifadə olunub. Bundan əlavə, mərkəzin eyvanları, şimal və cənub fasadları ənənəvi memarlıq quruluşunda, Şuşanın tarixi binalarının - XIX əsrə aid Zöhrabbəyovun evi, Üzeyir Hacıbəyovun ev-muzeyinin tikintisində istifadə olunmuş taxta tərkibli materiallardan (əsasən palıd) hazırlanıb. Binanın fasad örtüyünün üzərində və vestibülün girişinin üzlüyündə təbii Şuşa daşı ilə hazırlanmış relyef işləmələr mövcuddur. Kompleks fərdi üslubu, yüksək keyfiyyətli tüyündə yüksək enerji səmərəliyini təmin edən Günəş enerjisi panelləri də yerləşdirilib ki, bu da "təmiz" enerjiyə keçid istiqamətində görülən işlərin növbəti nümunəsidir. Qeyd edək ki, Şuşa Hotel-Konqres Mərkəzi Kompleksinin kitabxanasında 1000-ə qədər kitab mövcuddur. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY, ölkəmizdəki bir sıra səfirliklər və Tatarıstanın daimi nümayəndəliyi bu kitabxanaya ümumilikdə 215-ə qədər kitab hədiyyə edib. Hoteldə "Miras Rəsm Qalereyası" tərəfindən Azərbaycanın mədəni irsinə həsr olunan, "Doğma Mədəniyyət Ocağımız" şüarı altında sərgi açılıb. Sərgidə Qarabağdan olan karifey sənətkarlarımızın, eləcə də Azərbaycanın bu bölgəsindən ilham almış şəxslərin əsərləri nümayiş olunur. Ekspozisiyada Xalq rəssamları Nadir Əbdürrəhmanov, Maral Rəhmanzadə, Altay Hacıyev, Səttar Bəhlulzadəyə məxsus 23 rəsm əsəri, o cümlədən qarabağlıların portretləri, eləcə də bu ərazinin gözəl dağ mənzərələri yer alıb. Qarabağ mövzusundan ilhamlanan Xalq rəssamı Akif Əsgərovun, heykəltəraşlar Cavanşir Məmmədovun və Müşfiq Heydərovun 6 sənət nümunəsi də tamaşaçılara təqdim olunur. Kompleksin ətrafında mövcud ağaclar qorunmaqla geniş sahə yaşıllaşdırılıb, yeni ağaclar və bəzək gülləri əkilib, həyətində müasir interyerə malik daxili bağ salınıb. Burada qapalı və açıq avtomobil dayanacaqları vardır. Dövlət başçısına məlumat verilib ki, XVIII əsrin sonlarında Ağa Məhəmməd şah Qacarın Şuşaya hücumu ərəfəsində şəhərin müdafiəsinin təşkili məqsədilə İbrahimxəlil xanın göstərişi əsasında fəaliyyət göstərən silah emalatxanası da buraya gələcək qonaqlara nümayiş etdiriləcək.

*Qeyd edək ki, işğaldan azad edilmiş torpaqlarımız tarixi-mədəni dəyərləri ilə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var. Bu ərazilərin turizm potensialının səmərəli istifadəsi, regionun rəqabət qabiliyyətli turizm məkanına çevrilməsi üçün geniş tədbirlər həyata keçirilir.*

**İsmayıl**

# Heydər Əliyev təkcə gələcəyi görmür, həm də onu yaradırdı

## Nə qədər ki, Azərbaycan milləti və dövləti var, dünya miqyaslı böyük tarixi şəxsiyyət həmişə xatırlanacaq



**"Tanrı verən ömrü hər kəs bir cür yaşayır. Kimi özü üçün, kimi doğmaları üçün, kimi ailəsi üçün. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz mənalı və zəngin ömrünü bütövlükdə millətinə, xalqına, vətəninə və dövlətinə həsr etdi".**

*Bu sözləri millət vəkili Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, tükənməz millət sevgisinin nəticəsidir ki, müstəsna xidmətləri ilə Azərbaycanın taleyində misilsiz rolu olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı, dünya şöhrətli nəhəng siyasətçi - Heydər Əliyevin doğum günü hər il böyük təntənə ilə qeyd olunur. Əbədiyaşar liderimizin parlaq xatirəsi dərin ehtiramla yad edilir:* "1923-cü il may ayının 10-da dünyaya gələn dahi insan Heydər Əliyev hələ uşaq vaxtlarından fitri istedadı, bacarığı, təhsilə olan marağı, davranışı, yeniyetmə dövründən isə nəzəri bilikləri, aydın nitqi, cəsarəti ilə həmyaşıdlarından seçilməklə bərabər, həyata baxışı, milli-mənəvi dəyərlərə bağlılığı diqqəti cəlb edirdi. Tarixin xalqımıza bəxş etdiyi dahi şəxsiyyətin, müasir Azərbaycanın xilaskarı və memarı Ümummilli Liderimiz Heydər Əliyevin bütün fəaliyyətinin əsas və ali məqsədi Azərbaycanı güclü, demokratik dövlətə çevirmək və xalqına firavan həyat bəxş etmək idi. Onun adı və əməlləri milli dövlətçiliyimizin əbədiyyət zivəsini təşkil edir. Azərbaycanı sülh, sabitlik, milli-dini tolerantlıq məkanına, fərqli mədəniyyətlərin dialoq meydanına çevirən Heydər Əliyev ölkəmizin demokratik inkişaf yolunu müəyyənləşdirmiş, gənc müstəqil dövlətin siyasi platformasını mənəvi və əxlaqi konsepsiyalarını yaratmışdı. Ən əsası Ulu Öndər Azərbaycanın dövlət müstəqilliyinin daimiliyini, əbədiliyini, dönməzliyini təmin edən mükəmməl bir dövlətçilik ideologiyası formalaşdırmışdı. Azərbaycan xalqı hər il öz dahi oğlunun dünyaya göz açdığı 10 may gününü milli tarixin ən əziz günlərindən biri kimi qeyd edir. Ulu Öndərin anadan olmasının 100-cü ildönümü ərəfəsində onun ölməz xatirəsi milyonlarla soydaşımızın duyğu-düşüncələrini yenidən öz nuruna bürüyür".

Parlament üzvü vurğulayıb ki, xalqımızın Ümummilli Liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilib: "Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlandı, inkişaf etmiş və öz tarixi vətəni ilə sıx bağlılığını nümayiş etdirdi. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Heydər Əliyev fəaliyyətinin nəticəsidir. Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üz-üzə qalmış Azərbaycanı Heydər Əliyev qısa bir zamanda iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirə bildi. Heydər Əliyevin qurduğu dövlətin iqtisadi siyasəti əhalinin sosial müdafiəsini daim diqqət mərkəzində saxlamaqla sosial yönümü ilə səciyyələnirdi. Bu gün Azərbaycan nüfuzlu vətəndaş cəmiyyətinin əsaslarının qurulduğu, müxtəlif siyasi partiyaların sərbəst fəaliyyət göstərdiyi, yüzlərlə senzurasız qəzet və jurnalın nəşr olunduğu, eləcə də çox sayda özəl telekanalların yayımlandığı və internet şəbəkəsi istifadəçilərinin sayının sürətlə artdığı bir ölkədir. Ümummilli Lider Heydər Əliyevin siyasi obrazı Azərbaycan xalqının dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir. Heydər Əliyev təkcə gələcəyi görmür, həm də onu yaradırdı. Bu insan sabaha doğru gedən yolu açır və insanları o yolla getməyə çağırırdı. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş nəhəng dövlət xadimi və dünya şöhrətli siyasətçi Heydər Əliyevin qurduğu müasir müstəqil Azərbaycan əmin əllərdədir və Ulu Öndərin ideyalarını rəhbər tutan Prezident İlham Əliyevin həyata keçirdiyi mükəmməl siyasət sayəsində dayanıqlı inkişaf edərək daha da qüdrətlənir. Bütün bunlar qəti əminlik yaradır ki, nə qədər Azərbaycan milləti və dövləti var, dünya miqyaslı böyük tarixi şəxsiyyət Heydər Əliyev həmişə xatırlanacaq. Onun parlaq siması qədirbilən insanların qəlbində yaşayacaq, əziz və unudulmaz xatirəsi hər zaman xüsusi ehtiramla anılacaq".

**İsmayıl**

# Rusiyanın vasitəçiliyi ilə əsirlər qaytarıla bilər

## "Sülhməramlı rolunda olmaq təkcə silahlı qarşıdurmanın qabağını almaq demək deyil"





**Ermənistanda əsir saxlanılan hərbçimiz Aqşin Bəbirova uydurma, saxta ittihamlarla 11,5 il müddətinə həbs cəzası verilib. Hava şəraitindən dolayı yolu azaraq Ermənistana keçən əsgərimiz Aqşin Bəbirov "Ermənistanın dövlət sərhədini qanunsuz keçməkdə, odlu silah və döyüş sursatı daşımaqda" ittiham olunurdu. Əsirlikdə olan digər hərbçimiz Hüseyn Axundovla bağlı istintaq tədbirləri davam edir.**

Qeyd edək ki, bu ilin aprelində Naxçıvanın Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan Ordusunun itkin düşmüş əsgərləri - 2004-cü il təvəllüdlü Aqşin Bəbirov və 2003-cü il təvəllüdlü Hüseyn Axundov Ermənistan tərəfindən əsir götürülüb.

**Milli Cəbhə Partiyasının sədr müavini Tural İrfan "Şərq"ə bildirib ki, əsir düşmüş hərbçilərimizə Ermənistanda saxta ittihamlarla iş açılması erməni xislətinin bariz nümunəsidir. Partiya təmsilçisinin sözlərinə görə, hazırkı zamanda, sülh müqaviləsindən, sərhədlərin tənzimlənməsindən söhbət getdiyi bir ərəfədə onların bu addımı atmaları qətiyyən uyğun addım deyil:** "Dilqəm Əsgərov və Şahbaz Quliyevə də "ömürlük həbs" vermişdilər. Nə oldu? Nəticədə onlar azadlığa qovuşdu. İndiki əsgərlərimizə cinayət işi açmaları və tələsik onlara iş kəsmələri revanşist qüvvələrin təsiri ilədir. Ermənistan hakimiyyəti daxilində siyasi stabillik yoxdur. Rusiya və İran yönlü qüvvələr, qərbyönlülər var. Radikal, daşnak düşüncəli millətçilər var. Ona görə də əllərinə fürsət düşən kimi hakimiyyətə təzyiq göstərib, radikal qərarlar qəbul etməyə nail olurlar. Ermənistan hakimiyyəti özü də əsirlərlə siyasi bazarlıq etmək amalı güdə bilər. Bakıda həbsdə olan ermənilər sırf diversiya, təxribat əməli törətmiş şəxslərdir. Ancaq bizim əsirlər sadəcə yolu azaraq səhvən onların əlinə düşmüş şəxslərdir".

Ekspert vurğulayıb ki, beynəlxalq təşkilatlar da bu məsələdə ədalətli olmalı, Ermənistana təziq göstərməlidir ki, əsir əsgərlərimizi azad etsin: "Hər zaman olduğu kimi əsirlərin azad edilməsi məsələsində Ermənistan cığallıq edir, xislətini gizlətmir. Şübhəsiz, bu da İrəvanın ziyanına olacaq. İndi zaman başqadır. Qalib bir dövlətlə ancaq xahiş dili ilə danışa bilərlər. Hesab edirəm ki, Rusiyanın da vasitəçiliyi ilə əsirlər qaytarıla bilər. Sülhməramlı rolunda olmaq təkcə silahlı qarşıdurmanın qabağını almaq demək deyil. Eyni zamanda savaşa və qarşılıqlı apressiyaya gətirib çıxara biləcək məsələlərin qarşısının alınmasında sülhməramlı missiyanı öhdəsinə götürən tərəfin məsuliyyəti var. Sərhədlərin delimitasiya və demarkasiyası, sülh müqaviləsinə hazırlıq, Zəngəzur dəhlizi, Qazax və Sədərək rayonlarının kəndlərinin azad edilməsi ərəfəsində Ermənistanın əsirlərimizi həbs etməsi və qondarma ittihamlarla iş kəsməsi prosesləri qarşı təxribatdır. Məsələ gərginləşərsə, bu, ancaq Ermənistanın ziyanına olar. Yaxşı olar ki, Ermənistan tərəfi əsirləri vaxtında, qeyd-şərtsiz azad etsin və odla oynamasın".

**İsmayıl Qocayev**

# Vardanyan artıq ölü fiqurdur

## Xankəndidəki rüsvayçı mitinq göstərdi ki, ermənilər Kremlin maşasını ciddi qəbul etmirlər

**Erməni separatçıların uzun müddət təbliğatını apardığı mitinq mayın 9-da Xankəndidə baş tutub. Rusiyadan Qarabağa göndərilən Ruben Vardanyanın təşəbbüsü ilə reallaşan mitinq 12:00-a təyin edilsə də, gözlənilməndən çox gec başlayıb.**



Səbəb aksiyaya çox az sayda adamın qatılması olub. Yayılan kadrlardan görünüb ki, aksiyaya Qarabağda olan 20 minlik erməni icmasının heç 1 faizi də gəlməyib. Aksiyanın bir neçə on nəfərlə keçirildiyi aydın olub. Mitinqə marağın olmaması təşkilatçıları aksiyanı tez-tələsik yekunlaşdırmağa sövq edib. Beləliklə, vaxtından gec "başlayan" mitinq bir çıxışdan sonra bitib. Erməni mediası da bu aksiyanı işıqlandırmağa həvəs göstərməyib. Vardanyanın aksiya şousunun mövzusu Qarabağda "etnik təmizləmə", Laçın yolunda "blokada" olub. Mitinq əslində Xankəndidə separatizmin dayaqlarının məhv olduğunu təsdiqləyən faktdır. Əvvəlki aksiyalarda Ermənistandan avtobuslarla Xankəndiyə səyyar mitinqçi daşıyaraq meydanda adam sayını çoxaldırdılar. Hazırda Ermənistanla sərhəddə sərhəd-buraxılış məntəqəsi fəaliyyət göstərdiyi üçün aksiyaya kənardan adam cəlb etmək mümkün olmayıb. Nəticədə separatçıların düşdüyü vəziyyət bütün çılpaqlığı ilə üzə çıxıb.

**BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında bildirib ki, Qarabağın erməni icması da mövcud reallıqları qəbul edirlər. Onun sözlərinə görə, Vardanyan artıq ölü fiqurdur:** "Görünən budur ki, ermənilər Kremlin maşasını ciddi qəbul etmirlər. Rusiya Vardanyana son təlimatlarını vermişdi. Durumun lehinə olmadığının fərqində olsa da, şansını sonuncu dəfə yoxlamağı qərara almışdı. Ancaq mitinqin gedişatı və nəticələrdən sonra Moskva bunun əhəmiyyətsiz addım olduğuna əmin oldu. Bu, heç də Rusiyanın sakit duracağı anlamına gəlmir. Rusiya sadəcə Qarabağ ermənilərindən ümidini kəsir. Planlarını qurmağa başqa yollar axtaracaq. Böyük ehtimalla, bu, hərbi qarşıdurma yolu ola bilər. Moskva bölgədə vəziyyətin gərgin olduğunu göstərməklə burada qalmalı olduğunu isbat etməyə çalışır. Qərbin təmaslarının artdığı dövrdə Vardanyan aldığı təlimatla çalışır ki, Qarabağ ermənilərinin guya sülhə qarşı olduqlarını, "müstəqil" şəkildə yaşamaq istədikləri mesajını versin. Azərbaycan öz sözünü deyib. Qarabağ ermənilərinə heç bir status verilməyəcək. Bu reallığı 30 il dünya gücləri dəyişə bilmədi, indi hansısa bir oğru oliqarx və onun arxasında dayananların dəyişəcəyini iddia etmək gülməlidir".

**İsmayıl Qocayev**




# Vaşinqtonda bir addım irəli

## Danışıqlarda sülh müqaviləsi üzrə bəlli maddələrdə razılaşmalar əldə edilib

**Xarici işlər naziri Ceyhun Bayramov mayın 1-5 tarixlərində Vaşinqtonda Ermənistan XİN başçısı ilə keçirilən ardıcıl görüşlərdən danışıb. Nazir Vaşinqton danışıqlarında bir sıra məsələlərdə ümumi razılıq əldə olunduğunu vurğulayıb. C.Bayramov deyib ki, ABŞ-də sülh müqaviləsi ətrafında danışıqlar aparılıb və sülh müqaviləsi ilə bağlı təşəbbüslər Azərbaycan tərəfindən irəli sürülüb.**

Nazir bildirib ki, ABŞ vasitəçiliyi ilə Ermənistan yenidən danışıqlar masasına qayıdıb: "Bizim Vaşinqtonda 4 gün ərzində sülh müqaviləsi ətrafında kifayət qədər intensiv müzakirələrimiz oldu. Orada bir sıra maddələri, vacib məsələləri özündə ehtiva edir. Biz tam razılaşma barədə deyə bilmərik, tərəflərin mövqeləri arasında kifayət qədər fərqlər var, ancaq bu danışıqlarda sülh müqaviləsi üzrə bəlli maddələrdə razılaşmalar əldə edildi. Biz bir addım da irəli getdik. Bu prosesə realist yanaşmalıyıq. Bir görüşdə bütün məsələlərin razılaşdırılması yaxşı olardı. Bunu arzulayardıq, lakin biz buna hələ ki hazır deyilik. Azərbaycan sülh prosesinə sadiqliyini daim nümayiş etdirir". Xarici işlər naziri bəyan edib ki, qarşıda gözlənilən Brüssel danışıqları Azərbaycan-Ermənistan normallaşma prosesinin tərkib hissəsidir: "Bəlli bir fasilədən sonra Brüsseldə liderlərin görüşü müsbət bir haldır. Ümumilikdə biz bu prosesi müsbət qiymətləndiririk. Müxtəlif səbəblərdən danışıqlar prosesində ləngimələr olur. Azərbaycanın bu məsələyə yanaşması hər zaman davamlı və ardıcıldır. Azərbaycan münasibətlərin normallaşmasının tərəfdarıdır. Təəssüf ki, zaman-zaman Ermənistan tərəfindən qeyri-ardıcıl yanaşmalar, fikirlər səsləndirilir. Sülh danışıqları ilə bağlı 6 aya yaxın fasilə olub. Bu danışıqlar beynəlxalq vasitəçilərin rolu ilə yenidən baş verib. Bəlli bir fasilədən sonra liderlərin görüşü müsbət bir haldır. Yəqin ki, danışıqlar və onun nəticələrini gözləməyə çox qalmayıb". Qeyd edək ki, Brüssel Ermənistan və Azərbaycan liderləri ilə görüşü təsdiqləyib. Avropa İttifaqı Şurasından bildirilib ki, liderlər 2023-cü il mayın 14-də Brüssel üçtərəfli görüşündə yenidən toplanmağa razılaşıblar. Xatırladaq ki, Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Ceyhun Bayramovla Ararat Mirzoyanın növbəti görüşü Rusiyada keçiriləcək. Görüş Moskvanın dəvəti ilə 19 mayda baş tutacaq. Üçtərəfli formatda keçiriləcək görüşdə Rusiyanın xarici işlər naziri Sergey Lavrov da iştirak edəcək. Ermənistan xarici işlər nazirinin müavini Paruyr Hovhannisyan da Brüsseldən sonra Moskvada üçtərəfli görüşün olacağını açıqlayıb.

> "Sadəcə reallıq odur ki, oyunçuların çoxluğu gedişata mane olur, müzakirələrdə problemlər yaradır"

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında bildirib ki, Vaşinqton görüşündən sonra Brüssel təmaslarının gündəmə gəlməsi ilk dəfə baş vermir. Professorun sözlərinə görə, Avropa İttifaqının ABŞ-yə, Rusiyanın isə hər ikisinə siyasi qısqanclığı var:** "Azərbaycan hər üç siyasi meydanda öz sözünü deyir, oyununu qurur. Bizim üçün platformanın fərqli olması o qədər də əhəmiyyət kəsb etmir. Məqsəd Ermənistanla sülh sazişinin imzalanmasıdır. Sadəcə reallıq odur ki, oyunçuların çoxluğu gedişata mane olur, müzakirələrdə problemlər yaradır. ABŞ, Avropa İttifaqı və Rusiya bir-birinin mövqeyini almır. Brüsseldə baş tutacaq görüşdə hansısa irəliləyiş, anlaşma olacağını düşünmürəm. Ermənilər yenə təxribata əl atacaqlar. Nikol Paşinyanın görüş öncəsi sərsəm bəyanatlarla çıxış etməsi, rəsmi Bakıya şərtlər irəli sürməsi də bundan xəbər verir. Sirr deyil ki, Paşinyan ona verilmiş konspekt əsasında danışır. Bununla belə Brüssel görüşləri Vaşintqon danışıqlarının siyasi cəhətdən davamı sayıla bilər. Ancaq məqsəd Vaşinqton görüşünün nəticələrini zəiflətməyə xidmət edir. Avropa İttifaqı təşəbbüsü ABŞ-nin əlinə vermək istəmir. Çünki fərqindədirlər ki, Ağ Evin məqsədi Avropa İttifaqını siyasi müzakirələr, danışıq platformaları meydanından kənarda saxlamaqdır. Tərəflər arasında iqtisadi qarşıdurma kifayət qədər güclənib. İndi də siyasi qarşıdurmaya doğru addım atırlar. Avropa Birliyi müxtəlif ideologiyalı və fərqli mədəniyyətə sahib ölkələr toplusu olduğuna görə qitə ölkələrinin də aralarında vahid birlik yoxdur. Vaşinqton da bu amildən çox ustalıqla yararlanır".

**C.Nuriyev vurğulayıb ki, Moskvanın canfəşanlığı təsadüfi deyil:** "4 günlük Vaşinqton görüşlərində Kremlin sözçüsü Peskov dəfələrlə vurğuladı ki, Azərbaycan-Ermənistan arasında sülh ancaq üçtərəfli bəyannamənin şərtləri çərçivəsində mümkündür. Peskov unudur ki, üçtərəfli saziş heç bir dövlət tərəfindən ratifikasiya olunmayıb. Beynəlxalq hüquqi gücü yoxdur və ümumi bəyannamədir. Məhz ona görə də məcburi yerinə yetirilmir, İrəvan şərtlərə, öhdəliyinə əməl etmir. Moskvanın məqsədi prosesi yubatmaqdır, çünki tərəflər arasında sülh sazişi Rusiya sülhməramlı kontingentinin Qarabağdan çıxması anlamına gəlir. Bu da Kremlin bölgədən, daha doğrusu, konkret Azərbaycandan çəkilməsi deməkdir. Biz öz milli maraqlarımızı güdürük. Hədəflərimizə çatmaq üçün bütün zəruri addımları atırıq və atacağıq".

İsmayıl Qocayev

# Almaniya-Polşa münasibətləri gərginləşir

## Prosesin səngiməsi çətindir, hətta mümkündür ki, gərginliyin miqyası genişlənsin



> "Çünki hesab edilir ki, Rusiya Ukraynada qalib gəlsə, Polşanın təhlükəsizlik sferası incə ip üzərinə qoyulacaq"

**Rusiya-Ukrayna müharibəsi Polşa və Almaniya arasında gərginliyə səbəb olub. Berlinin Moskva saatına uyğun siyasəti Polşada Almaniya əleyhinə rəsmi və qeyri-rəsmi ritorika formalaşdırıb.**

Polşada hesab edirlər ki, Almaniya NATO-nun Rusiyaya qarşı çağırış və birgə müdafiə səylərinə həlledici dəstək vermir. Ekspertlərə görə, Polşadakı ritorikanın tarixi aspektləri də var. Rəsmi Varşava bildirir ki, Almaniya İkinci Dünya müharibəsində Polşaya yaşatdığı əzablara görə təzminatı tam həcmdə ödəmir.

**Siyasi şərhçi Aqşin Kərimov deyib ki, Polşa siyasətçiləri Varşavanın Almaniyanın təzminat ödənişlərinin təxminən 15 faizini aldığını deyirlər. Ancaq Polşa bu transferləri tez-tez xatırlatmır. Bunun əvəzinə diqqəti Almaniyanın təhlükəsizlik mühiti üçün zərərli hesab etdiyi mövqelərə yönəldir. Üstəgəl, Polşa mediasında Almaniyanı müxtəlif epitetlərlə bəzəyən yazılar dərc olunur:** "Görünür ki, Varşavanın təzminatla bağlı iradları ümumi kampaniyanın yalnız bir komponentidir. Ümumiyyətlə, Polşanın ritorikaları daha sərtdir. Almaniya ilə Polşanın çox fərqli siyasi dalğa uzunluğunda olması onların bir-birinə etibarını azaldır. Bu, Transatlantik prioritetlərə mənfi təsir göstərir və NATO qarşısında duran geosiyasi çağırışlara cavab verməkdənsə, onu zəiflədən mənbələrdən birinə çevrilir. Deməli, Ukraynadakı münaqişə uzandıqca Avropanın təhlükəsizlik məsələsi ilə bağlı mövqelər də davamlı dəyişikliyə məruz qala bilər. Rusiya ilə bağlı ikinci sürüşkən mövqe göstərən NATO ölkəsi Fransadır. Mümkündür ki, Berlinin Moskvaya olan loyal münasibəti Parisin ürəyincədir. Fransanın və Almaniyanın Rusiya təcavüzünə qarşı Ukraynanın qarşısında ürəkdən öhdəlik götürməməsi təhlükəsizlik üzrə aspektlərdə həssas çağırışlar formalaşdırır.

Görünür ki, Almaniya və Fransanın Ukraynada "istənilən qiymətə" atəşkəs arzulaması NATO üzrə fikir ayrılıqlarını körükləyəcək".

*Analitikin fikrincə, Polşanın narahatlıqlarının anlaşılan tərəfləri də çoxdur:* "Çünki hesab edilir ki, Rusiya Ukraynada qalib gəlsə, Polşanın təhlükəsizlik sferası incə ip üzərinə qoyulacaq. Digər yandan, Polşa bu mövqeyini əsaslandırmaq üçün Rusiya ilə Çinin yaxınlaşmasının Avropa üçün yarada biləcəyi təhlükələr barədə tezislərini arqumentləşdirə bilər. Həqiqətən, sual yaranır ki, Çin Rusiyaya həlledici dəstək versə, bu, Mərkəzi və Şərqi Avropada nizam və sabitliyin pozulmasında necə hərəkətverici qüvvə olacaq. NATO-nun daxilindəki intizamın və Avropanın təhlükəsizlik mühitinin Rusiyanın xeyrinə korlanması Ukraynadakı müharibənin gedişatından asılı olaraq qalmaqdadır. Hərçənd ki, NATO olmasa belə, Ukraynadakı müharibənin Avropa İttifaqı modelinə dağıdıcı təhdidləri gündəmdə ağır çəkiyə malikdir. Mövzu burada təkcə Rusiya üzərində fokuslanmır, Çin amilinin yeni nizamdakı tuta biləcəyi mövqelərə vurğular ediləcək. Nəticə olaraq hesab edirik ki, Almaniya-Polşa münasibətləri, bir çox sahədə, o cümlədən iqtisadi cəhətdən güclü tərəflərinə baxmayaraq, siyasi baxımdan pis vəziyyətdədir. Bunun səngiməsi çətindir, hətta mümkündür ki, gərginliyin miqyası genişlənsin".

İsmayıl

# Saakaşvili azad edilməyəcək

## Müxalifətin etirazlara və ya seçki yoluyla hakimiyyətə alternativ çıxarmağa resursları çatmır



**"İndiki məqamda Saakaşvili azad edilməyəcək. Çünki o, hakimiyyət üçün təhlükə yaradır".**

*Bunu "Şərq"ə açıqlamasında siyasi şərhçi Turab Rzayev Saakaşvilinin siyasi aqibətinin necə olacağından danışarkən deyib.*

O bildirib ki, müxalifətin etirazlara və ya seçki yoluyla hakimiyyətə alternativ çıxarmağa resursları çatmır: "Yeni müxalifəti vahid platformada birləşdirəcək şəxs yoxdur. Eyni zamanda Gürcüstan müxalifəti hakimiyyətə qarşı çıxacaq bir simvola da sahib deyil. Bu alternativ isə Saakaşvili ola bilərdi. Ona görə indiki hakimiyyət onu həbsxanadan buraxmağı düşünmür.

Çünki özünə problem yaratmaq istəmir. Eks-prezidentin buraxılması üçün isə Qərbin böyük təzyiqlər göstərməsinə ehtiyac var. Düzdür, bəzən onlar təzyiq edir. Hətta maliyyə resurslarını kəsməklə hədələyirlər. Ancaq Qərb Gürcüstan hakimiyyəti üzərində həddindən artıq basqı yaratmır.

Onlar çəkinirlər ki, indiki hökumətə həddən artıq təzyiq göstərsələr, hakimiyyət Rusiya ilə daha da yaxınlaşma yolunu seçə bilər. Buna görə də Qərb ehtiyatla davranır".

**Analitik əlavə edib ki, Gürcüstandakı hakimiyyət həm Rusiyanın maraqlarına uyğun olmadığını düşünərək, həm də özünə sərf etmədiyi üçün Saakaşvilini həbsdə saxlayır:** "Eyni zamanda eks prezidentin azad edilməsi hakimiyyət daxilindəki çatları da artıra bilər. Xatırlayırsızsa, Rusiya ilə bağlı indiki hakimiyyətin atdığı addımlarda, prezident yenə hökumətin əleyhinə çıxışlar etdi. Yəni Gürcüstan hakimiyyəti daxilində iqtidar, həmçinin Prezident və Baş nazir arasında müəyyən ziddiyyətlər var. Belə bir məqamda isə Saakaşvilini azad edərək risk almaq istəmirlər. Burada yalnız iki faktor prosesə təsir göstərə bilər. Birincisi, Ukrayna müharibəsində Rusiyanın ciddi şəkildə məğlub olması.

Belə bir vəziyyətdə gürcü hökuməti Kremlin onu qoruya bilməməsindən qorxaraq geri addım atacaq və eks- prezidenti daha tez azad edəcək. İkinci məsələ isə Gürcüstan hökuməti üzərində daha sərt təzyiqin qurulmasıdır. ABŞ və Avropanın isə Gürcüstanı itirməkdən qorxaraq sərt addımlar atıb-atmaması isə sual altındadır.

Çünki rəsmi Tbilisi Qərbin yardımlarından və kreditlərindən asılıdır. Ona görə də düşünürəm ki, Qərb Saakaşvilinin azad edilməsi üçün, maliyyə məsələləri üzərindən hakimiyyətə təzyiq edə bilər".

*Qeyd edək ki, bir neçə gün bundan öncə Gürcüstanın keçmiş prezidenti Mixeil Saakaşvili ölümdən son anda xilas olduğunu yazıb. "Vivamedi" klinikasına yerləşdirilən eks-prezidentin sözlərinə görə, dəfələrlə huşunu itirib: "Bu gün yenə huşumu itirdim və ölümdən bir saç eni etibarı ilə xilas oldum - huşumu itirdiyim üçün yıxılıb başımı dəmir masaya vurdum. Tibb bacılarına təşəkkür etmək istəyirəm, onlar vaxtında kömək etməklə məni dirildə bildilər".*

Nihat Müzəffər

# Seçim haqqı türk xalqınındır

## Türkiyədə seçkilərin nəticələri beynəlxalq siyasətə yeni düzən, yeni çalar gətirəcək

**"Mayın 14-də keçiriləcək tariximizin ən vacib seçkisində Allahın köməyi ilə yenə qələbə qazanacağıq". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tvitердə yazıb. O bildirib ki, seçkilərin nəticələrinə əsasən gənclər, yaşlılar, qadınlar və kişilər daxil olmaqla, 85 milyonluq xalqın hər biri qələbə qazanacaq:**

"Şərq, qərb, şimal və cənubda yerləşən 81 vilayətimizin hər biri qalib gələcək. Cəmiyyətimizin bütün təbəqələri qələbə qazanacaq. Fərqli inanclara sahib bütün vətəndaşlarımız qələbə qazanacaq. "Daha ədalətli bir dünya mümkündür" şüarımızı eşidən Asiya və Afrikadakı yüz milyonlarla insan qələbə qazanacaq. Ay-ulduzlu al bayrağımızı görəndə hüzur tapan, özünü inamlı hiss edən soydaşlarımız qalib olacaq. Ölkəmiz və dünyanın dörd bir tərəfində Türkiyənin uğuru üçün dua edənlər qələbə qazanacaq". Ərdoğanın sözlərinə görə, seçkilər nəticəsində Türkiyə, həmçinin bu regionda haqqı tapdalananlar qələbə qazanacaq: "14 may, Allahın köməyi ilə, hər birimizin bayramı, qürur günü, Türkiyə demokratiyasının bayramı olacaq. Heç kəs pessimist olmasın. Heç kəs ölkəmizin parlaq gələcəyi ilə bağlı inamını itirməsin". Xatırladaq ki, mayın 14-də Türkiyədə prezident və parlament seçkiləri keçiriləcək. Dövlət başçısı postu uğrunda 4 namizəd mübarizə aparacaq. Bunlar "Cümhur İttifaqı"nın namizədi, hakim Ədalət və İnkişaf Partiyasının sədri, hazırkı dövlət başçısı Rəcəb Tayyib Ərdoğan, "Millət İttifaqı"nın namizədi, müxalif Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıcdaroğlu, müxalif Məmləkət Partiyasının lideri Məhərrəm İncə və "Ata İttifaqı"nın namizədi Sinan Oğandır. Türkiyəli köşə yazarı Abdulkadir Selvi Ərdoğanın 50 faiz həddini keçdiyini, Kılıcdaroğlunun isə 45 faizə yaxınlaşdığını qeyd edib. Onun sözlərinə görə, seçkilər yaxınlaşdıqca Məhərrəm İncə və Sinan Oğanın səsləri azalır: "Ərdoğan, yoxsa Kılıçdaroğlu?" soruşulan zaman insanların çoxu Ərdoğanı seçir. Belə ki, sorğuların ümumi orta nəticəsinə görə, Ərdoğan artıq 52 faiz həddini keçib. AKP mitinqlərində insanların coşğulu iştirakı, xüsusilə də İstanbul mitinqində rekord sayda iştirak bunu təsdiqləyir. Həmçinin AKP 40 faizlik psixoloji müqavimət həddini də keçib. Kılıçdaroğlu dəstəkdə də artım gözlənilir. Kılıçdaroğlu deyənlərin nisbəti 48 faizə yaxınlaşır". Onun sözlərinə görə, Ərdoğanın birinci turda qalib gəlmə şansı həddən artıq çoxalıb. Bu arada Məmləkət Partiyasının sədri Məhərrəm İncə CHP lideri Kamal Kılıçdaroğlunu növbəti dəfə tənqid edib: "21 ildir ki, Rəcəb Tayyib Ərdoğanı məğlub edə bilmirsən. Trollarınla üzərimə hücum edirsən. Məncə, utanmalısan. Təkrar soruşuram: Sənə əngəl oluram, yoxsa yardımçı? Səhv edirsiniz, trollar, mən olmasam, 1-ci turda seçkini Ərdoğan qazanacaq".




> "Hakimiyyətə kimin gəlməsindən asılı olmayaraq, Türkiyə-Azərbaycan qardaşlığını sarsıtmaq və yaxud zəiflətmək mümkün deyil"

Qeyd edək ki, CHP tərəfdarları M.İncəni səsləri bölməkdə, Ərdoğanın şansını artırmaqda ittiham ediblər.

**Politoloq Əli Oruclu "Şərq"ə açıqlamasında bildirib ki, Türkiyədə 14 mayda keçiriləcək seçkiləri dünya ictimaiyyəti də diqqətlə izləyir. Analitikin sözlərinə görə, seçkilərin nəticələri beynəlxalq siyasətə yeni düzən, yeni çalar gətirəcək:** "Türkiyədə keçiriləcək seçkilərin Azərbaycana da çox böyük təsirləri olacağından ölkə ictimaiyyəti qardaş ölkədəki kimi bu prosesə fokuslanıb. Prezidentliyə 4 namizəd olsa da, aydındır ki, əsas mübarizə hazırkı Prezident R.T.Ərdoğanla ana müxalifət lideri K.Kılıcdaroğlu arasında gedəcək. Aparılan rəy sorğuları da iki əsas namizəd olduğunu göstərir. Türkiyə demokratik cəmiyyətdir və seçki ənənələrinə sahib olduğundan hər səs uğrunda ciddi rəqabət var. Əlbəttə, Türkiyə vətəndaşlarının seçiminə hörmətlə yanaşmalıyıq. Ancaq fikrimcə, 14 may seçkilərində indiki Prezident Ərdoğan yenidən öz postunu mütləq səs çoxluğu ilə, bir qədər də konkretləşdirsək, 52-55 faiz səslə qoruyub saxlaya biləcək. Kamal Kılıcdaroğluna xarici dəstək göstərilməsinə və məqbul saymadığımız siyasi xətt götürməsinə, çağırışlar etməsinə baxmayaraq, onun qalib olması mümkün görünmür. Kılıcdaroğlunun platformasından bəlli olur ki, türk dünyası və Türkiyənin yürütdüyü siyasətdən tamam fərqli yol yürüdüləcək. Bu isə türk dünyasının bir parçası olaraq Azərbaycanın da maraqlarına cavab vermir. Ümumiyyətlə, PKK terror təşkilatının siyasi qanadı sayılan HDP ilə bir ittifaqda yer almağın özü gələcəkdə yaxşı heç nə vəd etmir. Bölücülük suçlaması ilə həbsdə yatan Səlahəttin Demirtaşa salam göndərilməsi qəbuledilməzdir".

**Ə.Orucluya görə, seçkilər nə qədər Türkiyə üçün vacibdirsə, bir o qədər də Azərbaycan üçün önəmlidir:** "Təsadüfi deyil ki, bölgədə nüfuz uğrunda mübarizə aparan İran, Fransa, Rusiya, Avropa İttifaqı, ABŞ, həmçinin Ermənistanın özü Ərdoğanın uduzmasını səbirsizliklə gözləyir. Bu oyunçuların çoxu Azərbaycanla heç də dost sayıla bilməz. Eyni zamanda regionda təhlükəsizlik və sülhün dayanıqlı olması, Azərbaycanın maraqlarının təmin olunması baxımından Türkiyənin dəstəyinə ciddi ehtiyac var və bunu da Ərdoğan hakimiyyəti heç vaxt əsirgəməyib. Türk dünyasının sürətli inteqrasiyası, dünya siyasətində öz güclü mövqeyini saxlaması, Azərbaycanın çox vacib planlarının həyata keçirilməsi baxımından Prezident Ərdoğanın seçilməsi arzuolunandır. Bununla belə seçim haqqı qardaş Türkiyə xalqınındır və buna saygı ilə yanaşmağı bacarmalıyıq. Hakimiyyətə kimin gəlməsindən asılı olmayaraq, Türkiyə-Azərbaycan qardaşlığını sarsıtmaq və yaxud zəiflətmək mümkün deyil".

İsmayıl Qocayev

# Əfv Sərəncamı yüzlərlə ailəyə sevinc bəxş etdi

## Bu Sərəncam milli birliyimizi, həmrəyliyimizi gücləndirən mühüm bir hadisə kimi tarixə düşdü



**Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə verilən Əfv Sərəncamı bir daha təsdiqləyir ki, Prezident İlham Əliyevin fəaliyyətinin mərkəzində Azərbaycan vətəndaşı, onun rifahı və xoşbəxtliyi dayanır. Bu Sərəncamla dövlətimizin başçısı yüzlərlə ailəyə sevinc bəxş etdi, yeni nəfəs gətirdi. Bu, Azərbaycan tarixində qəbul edilmiş ən böyük əfv aktıdır.**

Bu dəfə əvvəlkilərindən daha çox - 801 məhkum əfv edildi. Onlardan 463 nəfəri azadlıqdan məhrumetmə cəzasından, 220 şəxs azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan azad olundu. Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu siyasi kursun təməlini humanizm, insanpərvərlik təşkil edir. Məhz bu strategiyanın uğurlu nəticəsidir ki, Azərbaycan vətəndaşı bu gün tarixinin ən şanlı və şərəfli dövrünü yaşayır. Ulu Öndər hər zaman humanist dəyərlərə söykənərək verdiyi sərəncamlarla minlərlə vətəndaşımızı əfv edib. Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilən bu siyasət artıq ənənə halını alıb. Dövlət başçısı bu humanist addımları ilə Azərbaycan vətəndaşına yüksək dəyər verir, hüquq və azadlıqlarını hər şeydən uca tutur. Sərəncamın Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə imzalanması onun siyasi kursuna, zəngin mənəvi irsinə, dövlətimizin və xalqımızın həyatında misilsiz xidmətlərinə verilən ən ali dəyərdir.

**Millət vəkili Vüqar Bayramov deyib ki, Əfv Sərəncamı şamil edildiyi şəxslərin dairəsinə görə müstəqil Azərbaycan tarixində ən böyük əfv aktıdır:** ”Çoxlu sayda ailələri sevindirən bu Sərəncam humanizm, insanpərvərlik, insan hüquqlarının daha yaxın qorunması kimi dəyərlər ilə yanaşı sosial baxımdan da vacibdir. Əfv olunmaq həmin vətəndaşlarımızın cəmiyyətə sosial inteqrasiyası və onların öz ailələrinə maddi dəstəyi baxımından da önəmlidir. Xüsusən də ailə üzvünün məhkumluq həyatına görə sosial vəziyyəti pisləşmiş ailələr üçün bu, xüsusi dəstək kimi xarakterizə oluna bilər. İnanırıq ki, əfv olunan vətəndaşlarımız üçün bundan sonra qanunun aliliyini qorumaq, cəmiyyətə reinteqrasiya olunmaq və öz ailəsinə və dövlətinə dəstək nümayiş etdirmək əsas hədəf olacaq”.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov da bildirib ki, yüzlərlə ailəni sevindirən çox möhtəşəm bir hadisəyə hamımız şahidlik etdik:** ”Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Prezident İlham Əliyev tərəfindən 801 nəfəri əhatə edən əfv sərəncamı imzalandı və sərəncamın icrasına başlanıldı.

İndiyə qədər dövlət başçısı tərəfindən dəfələrlə əfv sərəncamlarının imzalandığını bilirik. Lakin budəfəki əfv sərəncamı əvvəlkilərdən bir mühüm cəhəti ilə fərqlənir ki, bu sərəncam say baxımından daha çox insanı əhatə edir. Ona görə də bu sərəncam müstəqillik tariximizin ən böyük əfv sərəncamı hesab olunur. 801 məhbusa və onların ailələrinə sevinc gətirən bu humanist addıma görə cənab Prezidentə təşəkkürümü bildirirəm. Əfv olunan vətəndaşlarımızı və onların ailə üzvlərini isə təbrik edirəm. Bu hadisə milli birliyimizi, həmrəyliyimizi gücləndirən mühüm bir hadisə kimi tarixə düşdü”.

**İsmayıl**



**Rusiya Gürcüstanla viza rejimini ləğv edib. Bu barədə Rusiya Prezidenti Vladimir Putin göstəriş verib. Prezidentin göstərişinə əsasən, mayın 15-dən Gürcüstan vətəndaşları üçün viza rejimi ləğv olunur.**

# Viza rejiminin ləğvi...

## Rusiya Gürcüstanla əlaqələri bərpa etmək istəyir

*Qərarın gözlənilməz olduğunu deyən hərbi-siyasi ekspert Həşim Səhrablı ”Şərq” qeyd edib ki, Qərbin sanksiyaları fonunda biz Rusiyanın küncə sıxıldığını və müəyyən qədər iqtisadi, siyasi güc itirdiyini müşahidə edirdik:* ”Lakin onun Gürcüstanla əlaqələri bərpa edəcək qədər zəiflədiyini düşünməzdim. Mənə elə gəlir ki, Kreml Qərblə əlaqələrin kəsilməsi, Avropaya çıxışların bağlanması fonunda özünə yeni alternativ bazarlar və tərəfdaşlar axtarır. Düzdür, Gürcüstanla tərəfdaşlığın nə qədər uğurlu olması sual altındadır. Çünki ortada işğal faktı və separatizm məsələsi var. Bunlar həll edilmədən tərəflərin müttəfiqə çevrilməsi şübhəlidir”.

***"Kreml Qərblə əlaqələrin kəsilməsi, Avropaya çıxışların bağlanması fonunda özünə yeni alternativ bazarlar və tərəfdaşlar axtarır"***

**Analitik əlavə edib ki, Gürcüstan bir tranzit yol və ya bazar kimi Rusiyanın diqqətini cəlb edir. Yəni rəsmi Tbilisi Kremlin tranzit yolları funksiyasını oynayacaq tərəflərdən birinə çevrilə bilər:** ”Həmçinin Gürcüstan Rusiya və Ermənistan arasında yerləşir. Ermənistan isə Kremlin forpost ölkəsi rolunda çıxış edir. Bu halda rəsmi Tbilisi ilə münasibətlərin ziddiyyətli şəkildə davam etməsi Rusiyanın Ermənistana giriş-çıxışına problem yaradırdı.

Çünki başqa bir alternativ tranzit yol ola biləcək Azərbaycanın Ermənistanla sülh müqaviləsinin olmaması bu əlaqələri sıfıra endirib. Ona görə də rəsmi Moskva burada Ermənistana daha rahat kommunikasiyanı çıxışla təmin etməyi hədəfləyir.

Digər tərəfdən isə Rusiya anlayır ki, o, hər kəslə düşmən ola-ola iqtisadi potensialın arxa plana atır və özünü xarici bazarlardan məhrum edir.

Bu isə Kremlə həm iqtisadi, həm də dünyadakı nüfuzunun azalması fonunda zərər vurur.

İndi isə ruslar bu məsələləri həll etməyə və gələcək üçün ideal tərəfdaşlıqlar qurmağa çalışırlar. Yəni Qərblə mübarizədə bəzi ölkələrin ən azından tərəfsiz qalmasına çalışırlar”.

**Nihat Müzəffər**



# Brüssel və Kişinyov görüşündə də ciddi nəticə olmayacaq

## Qarabağda praktik addımlarla prosesi tamamlamaq ən doğru variantdır

**İyunun 1-də Kişinyovda Avropa Siyasi Birliyinin sammiti keçiriləcək. Sammitdə Azərbaycan və Ermənistan liderləri də iştirak edəcəklər. Ermənistanın ”Hraparak” nəşrinin yazdığına görə, ehtimal var ki, həmin gün Vaşinqtonda müzakirə edilən sənəd əsasında ”Münasibətlərin Tənzimlənməsi Müqaviləsi” adlanan sülh sazişi də imzalansın. Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonna da Moldovada tərəflər arasında görüşün keçiriləcəyini istisna etmədiyini bildirib.**

Bir müddət əvvəl Ermənistanın Baş naziri Nikol Paşinyan Kişinyovda Azərbaycan və Ermənistan arasında sülh sənədinin imzalanması ehtimalı barədə sualları cavablandırıb. Baş nazir sülh sənədi imzalanarsa, sevinəcəyini söyləyib: ”İyunun 1-də Ermənistanla Azərbaycan arasında hər hansı sənəd imzalansa, şad olaram”. Paşinyan Kişinyovda liderlər səviyyəsində görüşün olacağını inkar etməyib. Azərbaycan və Ermənistan liderlərinin Moldovada görüşü barədə xəbərlər hələlik rəsmi şəkildə təsdiqlənməyib. Tərəflər bununla bağlı hər hansı açıqlama verməyiblər. Lakin siyasi şərhçilər liderlərin görüşünü istisna etmirlər.

**Siyasi şərhçi Asif Nərimanlı bildirib ki, Vaşinqtonda fikir ayrılıqlarını həll edə bilməyən Bakı və İrəvan arasında növbəti görüş Brüsseldə, ardınca isə Kişinyovda keçiriləcək. Analitik vurğulayıb ki, liderlər səviyyəsində baş tutacaq Brüssel və Kişinyov görüşündə Paşinyan ən çox ikinciyə - iyunun 1-də Avropa Siyasi Birliyinin sammiti çərçivəsindəki müzakirələrə ümid edir:** ”Bu prosesdə əsas diqqətçəkən məqam erməni baş nazirin ”1 iyun tarixində sülh müqaviləsini imzalamağa ümid edirəm” açıqlamasıdır. İrəvanın sülhdən uzaq tələbləri var. İrəvan ”29,8 min kvadratkilometr ərazisi”nin toxunulmazlığını istəyir. Bu, Azərbaycan Ordusunun çıxdığı sərhəd xəttindən geri çəkilməsi ilə mümkün ola bilər. İşğal altındakı 8 kəndin qaytarılmasında problemlər yaradır. ”Bakı-Xankəndi formatı” ilə Azərbaycan daxilində separatçılığı təşviq edir. Qarabağdakı erməni əhalisinin ”hüquq və təhlükəsizliyi” üzərindən ərazi iddiasını başqa müstəvidə davam etdirir. Bu fikir ayrılıqları Vaşinqton görüşündə həll olunmadı. O zaman sual yaranır. Nikol Paşinyan ”1 iyun tarixində sülh müqaviləsinin imzalanmasına” niyə ümid edir? Əslində İrəvanın irəli sürdüyü bu tələblər və dörd gün davam edən Vaşinqton danışıqlarında geri çəkilməməsi ”1 iyun” planına hesablanmış gedişdir. Bu tarixdə Kişinyovda Azərbaycan və Ermənistan liderləri, Fransa Prezidenti və Almaniya kansleri arasında ”dördtərəfli görüş” keçiriləcək”.

*Ekspertin sözlərinə görə, Qərb cəbhəsində Vaşinqton və Brüssel formatı sərhəd və kommunikasiyanın hansı prinsiplərlə açılması məsələsində tam istəyimizə uyğun olmasa da, Qarabağ məsələsində böyük ölçüdə Bakının gündəliyini qəbul edir:* ”Fransa isə Vaşinqton və Brüssel formatına alternativ olaraq, özünün təşəbbüskar olduğu prosesin önə çıxmasına çalışır. Bu, Parisə Cənubi Qafqazda regional, Avropada geosiyasi mübarizədə güc mərkəzi olaraq qəbul edilmək hədəfi üçün lazımdır. Makron Şarl Mişelin qurduğu Brüssel formatını ələ keçirməyə çalışsa da, baş tutmadı, nəticədə Rusiya qarşısında alternativ formatın arxa plana keçməsi riskini yaratdı. Vaşinqtonun oyuna birbaşa müdaxiləsi də bundan qaynaqlanır. Bu baxımdan, Fransa ayrı masa qurmaq istəyindən əl çəkmir. Bu, Qərb platformasında sərhəd və kommunikasiya məsələsində istəyini müəyyən qədər qəbul etdirən İrəvana Qarabağ planının da nəzərə alınması üçün lazımdır. Ötən il Praqada keçirilən ”dördtərəfli görüş”də Ermənistan Fransanın dəstəyi ilə ”sərhədin SSRİ dağılanda mövcud olan xətlərlə müəyyənləşməsi” mövqeyini nəzəri olaraq qəbul edilməsinə nail oldu. İyunun 1-də yenə Fransanın dəstəyi ilə Qarabağa dair mövqeyinin qəbul edilməsinə çalışacaq. Bu kimi məsələlər bölgədə praktik olaraq heç nəyi dəyişdirə bilməsə də, İrəvan ən azı diplomatik masada əlini gücləndirmək üçün bütün imkanlardan istifadə edir. Bakının buna imkan verməyəcəyi də bəllidir”.

**A.Nərimanlı əlavə edib ki, ötən il Praqada ”dördtərəfli görüş”də Paşinyan ”sərhəd” məsələsində nəzəri olaraq, önə çıxsa da, dövlət başçısı İlham Əliyev ərazi bütövlüyünün tanınmasına nail oldu:** ”Ötən il Makronun Praqada ”əsas vasitəçi” olmaq planını Mişelin masada iştirakı ilə pozan Bakı Kişinyovda Almaniya kansleri Olaf Şolzun iştirakı ilə Fransaya alternativ irəli sürür. Kişinyov görüş təklifini Bakıya Fransanın xarici işlər naziri gətirmişdi. İstisna deyil ki, ölkə başçısı İlham Əliyev bu görüşə Şolzun da iştirakı şərti ilə razılaşıb. Bunun fonunda Kişinyov görüşünə qədər liderlərin Brüsseldə bir araya gəlməsi Mişelin müəllifi olduğu formatı davam etdirmək istəyi ilə yanaşı, Bakının maraqlarına da uyğundur. Çünki Qərb platformasında Qarabağın Azərbaycanın daxili məsələsi olduğu bu formatda qəbul olunub. Eyni mövqeyin növbəti görüşdə də sərgilənəcəyi şübhəsizdir. Bu həm də Bakı üçün Kişinyova daha güclü mövqe ilə getməyə imkan verəcək.

Ümumi fonda bütün bu görüşlərin nə sülh müqaviləsinin imzalanmasına, nə də bölgədəki proseslərə praktik olaraq təsir etmədiyi aydın görünür. Bu baxımdan, diplomatik masada müzakirələrin getdiyi vaxt Qarabağda praktik addımlarla prosesi tamamlamaq ən doğru variantdır. Laçına post quran Bakının da bu prinsip üzərindən hərəkət etdiyi görünür”.

**İsmayıl Qocayev**

# Dünya bir daha gördü

## Ermənistan siyasi sabitlik xəttinə sadiq ölkə deyil

**Qələbədə payı olmuş ölkələrdə hər il 9 may münasibətilə tədbirlər keçirilir, bu tarixdə müharibə iştirakçıları, onların keçdiyi zəfər yolu xatırlanır. Rusiyanın paytaxtı Moskvada isə 9 mayla bağlı hər il ənənəvi qələbə paradı təşkil olunur. Paradda bir sıra ölkələrdən gələn qonaqlar da iştirak edirlər.**



***Paşinyan 9 May paradında Qərb ölkələrinin üz çevirdiyi Putinlə bir sırada dayandı***

Bu il də Rusiyanın paytaxtı Moskvada Qızıl Meydanda İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin 78-ci ildönümü münasibətilə hərbi parad keçirilib. Moskvada təşkil olunan paradda Qazaxıstan, Belarus, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan prezidentləri və Ermənistanın Baş naziri iştirak edib. MDB ölkələrindən Moldova və Gürcüstanla yanaşı, Azərbaycan rəsmiləri də 9 May paradına qatılmayıb.

Qərbyönümlü kimi tanınan Paşinyanın hərbi paradda iştirakı isə xüsusi diqqət çəkib. Qeyd edilənlərə görə, Paşinyanın paradda iştirakı qərbyönlü siyasət həyata keçirdiyi haqda söylənilənlərin mif olduğunu göstərir.

Bəs, Azərbaycanın Moskvadakı tədbirdə təmsil olunmamasının səbəbi nədir? Bakı Moskvanın dəvətindən niyə imtina edib?

*ReAL Partiyasının icraçı-katibi Natiq Cəfərlinin sözlərinə görə, paradda iştirak edən dövlət başçıları israrla Azərbaycanı Rusiyanın müttəfiqi kimi təqdim edərək, guya bundan siyasi xal qazanmağı düşünürlər:* ”Bu gün Moskvada Putinin paradında yer alan Paşinyandır, Rusiyaya sanksiyalardan yan keçməyə kömək edən, ərazisində rəsmi Rusiya hərbi bazası olan, Kremlin başında durduğu KTMT, Gömrük və Avrasiya ittifaqlarında yer alan, iqtisadiyyatının 72 faizi Rusiyadan asılı olan da Ermənistandır. Bu gün Putinin paradında biz yoxuq, Ukraynaya ən çox humanitar yardım göstərən ölkələrdən biri Azərbaycandır, Kremlin başında durduğu heç bir qlobal layihədə yer almamışıq (MDB-dən başqa, o da formal qurumdur)”.

**Politoloq Cümşüd Nuriyevin sözlərinə görə, Rusiya hər zaman Azərbaycan, Ukrayna və Gürcüstana qarşı ədalətsiz yanaşıb:** ”İkinci Dünya müharibəsində Azərbaycanın 3.1 milyon əhalisi var idi. Həmin vaxt ölkəmizdən müharibəyə 687 min insan aparılmışdı. Bu qədər insanın təxminən 300 mini müharibə zamanı həyatını itirib. İkinci Dünya müharibəsinin bütün ağırlığını Azərbaycan çəkib. Deməli, o zamanlar Azərbaycanda hər altı nəfərdən biri müharibədə iştirak edib. Yəni hər ailədən 1 nəfər, bəzi ailələrdən isə 3 nəfər İkinci Dünya müharibəsində iştirak edib. Həmin dövrdə Ermənistan və Gürcüstandan aparılan insanların sayı bizdən 2 dəfə az idi. Yəni demək olar ki, müharibədə ancaq müsəlman ölkələrin vətəndaşları iştirak edib. Müharibə müddətində istifadə olunan hərbi texnikaların 75 faizi Azərbaycan nefti ilə işləyirdi. Amma bununla belə Bakıya ”Qəhrəman şəhər” statusu vermədilər. Halbuki müharibənin bütün ağırlığını məhz elə Azərbaycan çəkmişdi”.

Onun fikrincə, Azərbaycan rəhbərliyinin Moskva paradında iştirak etməməsi ölkəmizin haqqa tərəfdar olduğunu, Ukrayna məsələsində ədalətli mövqe tutduğunu göstərir.

**Siyasi şərhçi Azər Həsrət isə ”Şərq”ə açıqlamasında deyib ki, Nikol Paşinyan öz fəaliyyətində qərbə meyilli siyasətçi kimi görünməyə çalışır. Amma Moskvadakı 9 May paradında Qərb ölkələrinin üz çevirdiyi Putinlə bir sırada dayandı:** ”Bununla da özünün qeyri-sabit xarakterini bütün dünyaya təsdiq etdirmiş oldu. Dünya indi balanslaşdırılmış siyasət istəmir. Ya Putin, ya da qərb tərəfdarı olmalısan. Paşinyan və onun rəhbərlik etdirdiyi Ermənistan ”nə yardan doyur, nə də əldən qoyur”. Bu isə Ermənistanın siyasi sabitlik xəttinə sadiq olmadığının göstəricisidir. Azərbaycan Prezidenti bütün dünyada özünün sabit və müstəqil mövqeyi ilə seçilir. Biz nə qərb, nə şərq, nə Rusiya, nə də İran tərəfdarı deyilik. Heç birinə hesabat vermirik. İlham Əliyev paradda iştirak etsəydi belə burada sual doğuracaq bir hal olmayacaqdı. Amma ölkəmizin daxili məsələləri cənab Prezident üçün prioritet məsələ olduğundan 9 May paradına getməyib. Bilirsiniz ki, elə həmin gün Şuşada ”Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı başlayıb və hazırda da davam edir. Azərbaycan Prezidenti İlham Əliyev də festivalda iştirak etdiyi üçün Rusiyanın dəvətini qəbul etməyib”.

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

# Azərbaycan dünyanın tolerantlıq mərkəzlərindən birinə çevrilib

## Ölkəmizdə ayrı-ayrı dinə mənsub millətlər sülh və qarşılıqlı anlaşma şəraitində yaşayır



**Sürətli miqrasiya və inteqrasiya prosesi ilə müşayiət olunan qloballaşma dövründə tolerantlıq prinsiplərini bərqərar etmədən dünyada qalıcı sülhə və sabitliyə nail olmaq qeyri-mümkün görünür. Heç də bütün millətlər birgə yaşadığı digər millətin mədəniyyətinə, dininə və digər mənəvi dəyərinə hörmət etmək istəmir. Bunun da nəticəsində toqquşmalara, savaşlara gətirib çıxaran qanlı hadisələr baş verməkdədir. Azərbaycanda isə vəziyyət fərqlidir.**

Ölkəmizdə milli və dini dözümlülük tarixi ənənələrimizə əsaslanır və cəmiyyətimizin tələbidir. Bu mənada ölkəmizi fərqləndirən cəhət tarix boyu bu coğrafiyada yaşayan bütün dinlərin və etnosların təmsilçilərinin bir-birilərinin mədəni və mənəvi baxışlarına sayğı göstərməsidir. Bütün tarixi dövrlər ərzində kəsilməyən dövlətçilik ənənəsi, adət-ənənələrin cəmiyyətdə yüksək mənəvi keyfiyyət kimi hakim mövqeyi, digər dinlərin daşıyıcılarına münasibətdə tolerantlıq və birgəyaşayış vərdişləri bizim həyat prinsiplərimizin əsasında dayanır.

Bu münasibət müasir zamanda da nəinki dəyişməyib, əksinə, daha da dərinləşib. Azərbaycan Respublikası dünyəvi dövlətdir və ölkəmizdə dövlət-din münasibətləri mövcud qanunvericiliyə uyğun şəkildə tənzimlənir. Respublikamızda mövcud olan bütün dinlərin nümayəndələrinə qarşı dözümlülük və tolerantlıq nümayiş olunur. Azərbaycan bu aspektdən dünyanın bir çox dövlət və cəmiyyətlərinə nümunə ola biləcək bir ölkədir. Xalqımızın öz tarixi köklərinə bağlılığı, milli-mənəvi dəyərlərinə sadiq olması respublikamızın mövcud xətt üzrə dövlət siyasəti ilə tam bir vəhdət təşkil etməkdədir. Cəmiyyətimizdə həm dini, həm də bəşəri dəyərlərə eyni ölçüdə önəm verilir.

Yüz illər boyu burada məskunlaşıb yaşayan hər kəs üçün doğma Vətən olan Azərbaycanda bu gün də müxtəlif etnik qrupların və etiqadların nümayəndələri sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar. Ölkəmizdə xalqlararası dostluğun və dinlərarası harmoniyanın qorunması, yüksək birgəyaşayış mədəniyyətinin və demokratik ictimai-mənəvi dəyərlərin təşviqi, qlobal miqyasda sivilizasiyalararası dialoqun təbliği mütərəqqi milli-tarixi ənənəyə əsaslanan dövlət siyasətimizin başlıca istiqamətlərindən biridir.

Bu gün Azərbaycanın dövlət siyasətinə çevrilən multikulturalizm anlayışı təkcə ayrı-ayrı ölkələrdə deyil, bütövlükdə dünyada mədəni müxtəlifliyin qorunmasına və bu vasitə ilə ümumbəşəri harmoniya yaradılmasına, xalqların, fərqli din və mədəniyyətlərin qarşılıqlı faydalı əməkdaşlığına yönəldilmiş nəzəriyyədir. Dünyada multikulturalizm anlayışının dəyərdən düşdüyü və öz effektivliyini itirdiyi barədə fikirlərin formalaşdığı bir dövrdə Azərbaycan multikulturalizmin alternativsiz bir anlayış olduğunu əyani şəkildə sübut etməkdədir. Ölkəmizdə multikulturalizm nəinki siyasi xətt kimi, eyni zamanda milli keyfiyyət kimi də təqdim olunmaqdadır.

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının da dünən jurnalistlərə açıqlamasında dediyi kimi, Azərbaycanda hər bir vətəndaş məscidlərə gedib orada ibadət edə bilər. Onun hansı məzhəbin daşıyıcısı olması müzakirə mövzusu deyil.** "Azərbaycan multikultural və tolerant dəyərlərə yüksək yer verən ölkədir və Azərbaycanda müxtəlif dini konfessiyalar fəaliyyət göstərir. Bu gün Azərbaycanda pravoslav kilsəsi, yəhudi sinaqoqları və digərləri azad formada fəaliyyət göstərir. Azərbaycanda, o cümlədən işğaldan azad edilmiş ərazilərimizdə yaşayan ermənilərin də öz dini ayinlərini icra etməsi üçün heç bir problem yoxdur".

M.Qurbanlı bildirib ki, əsas odur ki, stabillik, dinlərarası harmoniya olsun. Azərbaycan müstəqil, dünyəvi dövlətdir.

### *Bu münasibət müasir zamanda da nəinki dəyişməyib, əksinə, daha da dərinləşib*

Biz bu vəhdəti, dinlərarası harmoniyanı, qarşılıqlı anlaşmanı daim qorumalıyıq: "İslami dəyərlərə ölkəmizdə yüksək yer verilir. Bu məsələ ölkəmizin siyasətində də öz əksini tapır. Biz islam cameəsində də birliyə və bütövlüyə nail olmaq üçün geniş iş aparırıq. Biz öz ölkəmizin milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə digər xalq və qurumların başqa adlar altında sirayət etməsinə imkan verə bilmərik".

**Millət vəkili Ceyhun Məmmədov isə "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan tolerantlıq və multikulturalizm baxımından bir çox dünya ölkələri üçün nümunədir:** "Azərbaycan azsaylı ölkələrdəndir ki, burada ayrı-ayrı dinə mənsub millətlər sülh və qarşılıqlı anlaşma şəraitində yaşayır. Biz müsəlman xalq olaraq digər din nümayəndələrinə qarşı ayrı-seçkilik sərgiləmirik. Hər hansı başqa bir dinə və millətə mənsub olduğuna görə Azərbaycan ərazisində insanlara cəmiyyət tərəfindən radikal münasibət göstərilməyib. Bu da tarixən Azərbaycanda formalaşan adət-ənənədir. Ancaq zaman-zaman bu cür mövcud ənənələrə qarşı təhdidlər də olur. Bu istiqamətdə Azərbaycan dövləti hər zaman ciddi tədbirlər görür. Bu gün bir dövlətin gücü onun mənəvi dəyərləri, ölkəsindəki tolerant, multikultural münasibətlərlə birbaşa bağlıdır. Çalışmalıyıq ki, bizə dədə-babadan qalan bu möhtəşəm ənənələri gələcək nəsillərə çatdıra bilək.

Bu gün Azərbaycanda həyata keçirilən siyasət nəticəsində ölkəmiz dünyanın tolerantlıq mərkəzlərindən birinə çevrilib. Azərbaycan müsəlman ölkəsi olmasına baxmayaraq, burada bütün dinlərin öz dini ayinlərini sərbəst yerinə yetirmələri üçün şərait yaradılıb".

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# 16 yaşlı gənc müəllimin taleyi...

**İlk xanım pedaqoqlardan Törə xanım Zamanovanın həyatı, fəaliyyəti araşdırılmayıb. H.Z.Tağıyevin Lifli maddələrin emalı səhmdar cəmiyyəti nəzdindəki oğlan və qızlar üçün birsinifli ibtidai məktəbinin tatar, yəni Azərbaycan dili və şəriət müəllimi Törə Məşədi Rəsul qızı Zamanovanın pedaqoji fəaliyyəti haqqında demək olar ki, indiyə kimi araşdırma aparılmayıb.**

Azərbaycanın təhsil tarixində müəyyən rolu və xidməti olan, lakin haqqında bugünədək heç bir məlumat dərc edilməyən növbəti qadın pedaqoqlardan biri də Törə Məşədi Rəsul qızı Zamanovadır. Törə Zamanova haqqında nə ensiklopediyalarda, nə də ki, digər kütləvi nəşrlərdə, hətta internet saytlarında, vikipediyada hər hansı bir məlumat aşkar etmək mümkün deyil. Bu qadın pedaqoqun fəaliyyəti bugünədək öyrənilməyib və cəmiyyətimizə tanıdılmayıb. Amma Azərbaycanda savadsızlığın aradan qaldırılmasında, məktəb-təhsil işinin yayılmasında rolu və xidməti olmuş pedaqoqların fəaliyyəti öyrənilərək cəmiyyətimizə tanıdılmalıdır. Törə Zamanova Azərbaycanda neft sənayesinin inkişafında xidmətləri olan böyük xeyriyyəçi, maarifpərvər və ictimai xadim H.Z.Tağıyevin Bakı şəhərində təsis etdiyi Aleksandrinski, eləcə də Mariyin məktəbinin kurslarını bitirib. Xatırladıram ki, Azərbaycanda milli ziyalı qadın təbəqəsinin yaranmasında, dünyəvi qadın təhsilinin inkişafında, Azərbaycan qadınının dünyəvi təhsil almasında H.Z.Tağıyevin təşkil etdiyi ilk müsəlman qız məktəbinin əhəmiyyətli xidmətləri var. Bu məktəbi bitirən onlarla azərbaycanlı qızlar, o cümlədən Səidə xanım Şeyxzadə, Mina xanım Aslanova, Ayna Musabəyova, Fatma Sultanova, Maral Bayraməlibəyova, Xeyransa Axundova, Sona Axundova, Nabat Nərimanova və onlarca digər qadın-pedaqoqlar sonrakı dövrlərdə, xüsusilə müstəqillik illərində millətimizin mədəni tərəqqisində, Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasətinin həyata keçirilməsində yaxından iştirak ediblər.

H.Z.Tağıyevin müsəlman qızlar üçün təsis etdiyi Aleksandrinski qadın məktəbinin, həmçinin Mariyin məktəbinin kurslarını bitirən Törə xanım Zamanova 1915-ci il sentyabrın 1-də Hacı Zeynalabdin Tağıyevə ərizə ilə müraciət edərək ona fabrika nəzdində təsis edilən həmin məktəbdə tatar (Azərbaycan dili) müəlliməsi vakant yerinin verilməsini xahiş edib. Törə xanım Zamanova eyni məzmunlu ərizə ilə 1915-ci il sentyabrın 1-də həmçinin Bakı quberniyası və Dağıstan Vilayətinin xalq məktəbləri müfəttişinə də müraciət edib.

Törə xanım Zamanova istər H.Z.Tağıyevə, istərsə də Bakı quberniyası və Dağıstan vilayətinin xalq məktəbləri müfəttişinə ünvanladığı ərizələrində sənədlərinin Aleksandrinski məktəbinin dəftərxanasında olduğunu qeyd edirdi. Törə xanım Zamanovanın H.Z.Tağıyevə ünvanladığı ərizəsinin dərkənarında məktəbin müdiri Vera Stefanovskaya tərəfindən aşağıdakılar qeyd edilib: "Hacı göstəriş vermişdir ki, Törə Zamanova tatar (Azərbaycan dili) müəlliməsi kimi qəbul edilsin". Daha sonra məktəbin müdiri Vera Stefanovskayanın 3 sentyabr 1915-ci il tarixdə Törə xanım Zamanovaya ünvanladığı məktubda qeyd edilirdi: "Lütfkar məlikə, məlumat verirəm ki, siz sentyabrın 1-dən etibarən Lifli maddələrin emalı səhmdar cəmiyyəti nəzdindəki birsinifli məktəbə tatar, Azərbaycan dili və şəriət müəlliməsinin vəzifələrini icra edən təyin edilirsiniz. Təxirə salınmadan qulluq yerinə gəlməyinizi təklif edirəm".



Müvafiq arxiv sənədlərində təəssüflər olsun ki, Törə Zamanovanın avtobioqrafik məlumatları aşkar edilməyib. Ona görə də onun avtobiaqrafiyası haqqında hər hansı bir məlumat vermək çətindir. Lakin Törə xanım Zamanovanın doğum tarixini Bakı quberniyası və Dağıstan vilayətinin Xalq Məktəbləri Direktorunun Xalq Məktəblərinin 2-ci rayonu üzrə müfəttişi S.M.Qəniyevə 22 sentyabr 1915-ci il tarixdə göndərdiyi məktubla təqribən müəyyən etmək mümkündür. Belə ki, həmin məktubda Bakı quberniyası və Dağıstan vilayətinin Xalq Məktəbləri Direktoru qeyd edirdi: "Aleksandrinski məktəbinin kurslarını bitirmiş Zamanova mənim yanımda olarkən bildirmişdi ki, onun heç on altı yaşı yoxdur. Buna görə də o, müəllimə vəzifəsini icra edən təyin edilə bilməz və yalnız məktəbdə dərslərə ezam edilə bilər. Bunu sizə binagüzarlıq üçün bildirirəm".

Törə xanım Zamanovanın doğum tarixini təsdiq edən və yaxud bu barədə məlumat verən digər hər hansı bir sənəd yoxdursa, bu məlumata əsaslanaraq qeyd etmək olar ki, Törə xanım təxminən 1899-1900-cü illərdə anadan olub. Bakı quberniyası və Dağıstan vilayətinin xalq məktəbləri müfəttişinin H.Z.Tağıyevin fabrikasının nəzdindəki məktəbin müdirinə göndərdiyi 3 sentyabr 1915-ci il tarixli məktubda Törə xanım Zamanovanın Bakı Aleksandrinski və Mariyin məktəblərinin kurslarını bitirdiyi haqqında məlumat qeyd edilib.

Xalq Maarif Nazirliyinin Xalq Maarifi Departamenti hərbi xidmətə çağırılanların əvəz edilməsinə dair görüləcək tədbirlər haqqında hazırladığı arayışı 1915-ci il sentyabrın 11-də Xalq məktəblərinin direktorlarına göndərmişdir. Həmin arayışda qeyd edilirdi:"... əvvəllər ibtidai məktəblərdən hərbiyəyə çağırılanların böyük əksəriyyətinin hərbi hissələrdə saxlanılması, həmçinin hərbi xidmətə yeni könüllü kontingentinin cəlb edilməsi məktəblərin doğru fəaliyyətini təmin etmək üçün bizdən hərbiyəyə çağırılanları əvəz edə biləcək hazırlıqlı şəxslərin axtarıb tapılması və onların əvəz edilməsi işlərinə qayğı ilə yanaşılmasını tələb edir. Yuxarıda qeyd olunanları nəzərə alaraq Departament sizlərdən xahiş edir ki, hərbi xidmətə çağırılanları və könüllərin yeni kontingentini əvəz edə biləcək şəxslərin işə cəlb edilməsi işinə diqqəti artırasınız".

Çox güman ki, Xalq Maarif Nazirliyinin Xalq Maarifi Departamentinin hərbi xidmətə çağırılanların əvəz edilməsi üzrə görüləcək tədbirlər haqqında sirkulyarın tələblərinin yerinə yetirilməsi məqsədilə Törə xanımın 16 yaşı olmasına baxmayaraq, məktəbə müəllimə kimi qəbul edilmişdir. Arxiv materialları təsdiq edir ki, Lifli maddələrin emalı səhmdar cəmiyyəti nəzdindəki birsinifli məktəbdə tatar (Azərbaycan dili) və şəriət müəlliməsi vəzifəsində 11 sentyabr 1910-cu ildən 1 sentyabr 1915-ci ilədək Rza bəy Lətifbəyov olub. Rza bəy Lətifbəyov 5 sentyabr 1915-ci il tarixli ərizəsinə uyğun olaraq işdən azad edilib.

Tarixdən məlumdur ki, Rusiya İmperiyasının ictimai-siyasi həyatı 1917-ci ildə baş vermiş müxtəlif çevriliş və inqilablarla müşayiət olunub. Fevralın 27-də paytaxt Petroqradda baş verən fevral demokratik inqilabı fevralın 28-də inqilabın qələbəsi ilə nəticələndi. Bununla yanaşı, Rusiyanın siyasi həyatındakı təlatümlər bitməyib davam edirdi. 1917-ci il oktyabrın 25-də Petroqradda bolşevik çevrilişi baş verdi. Rusiyanın paytaxtında baş verən inqilabi çevriliş Bakıya da təsirsiz ötüşmədi. Bakıda 1917-ci ilin martından - 1918-ci il iyulun 31-dək hakimiyyətdə olan Bakı sovetinin 25 aprel 1918-ci il tarixli qərarı ilə Bakı Soveti Xalq Komissarlığı tərkibində Xalq Maarif Komissarlığı yaradıldı. Bununla da Azərbaycanda məktəb işinin inkişafı, məktəb şəbəkəsinin genişləndirilməsi və s. məktəb-təhsil məsələləri Xalq Maarif Komissarlığının qarşısında duran məsələlərdən biri sayıldı.

H.Z.Tağıyevin Fabrikası nəzdindəki məktəbin müəlliməsi Törə Zamanova 14/27 may 1918-ci il tarixdə Bakı Soveti tərkibindəki Xalq Maarif Komissarlığına ərizə ilə müraciət etdi. Onun həmin ərizəsində qeyd edilirdi: "1916-cı ildən etibarən mən Tağıyevin məktəbində müəlliməyəm. Komissariatın əmrinə əsaslanaraq bildirirəm ki, bundan sonra da həmin məktəbdə müəllimə olaraq qalıb işləmək istəyirəm. Xahiş edirəm məni adıçəkilən məktəbə müəllimə vəzifəsinə qəbul edəsiniz. Mənim bütün sənədlərim Xalq Məktəbləri Direksiyasındadır. Cari ildə mən heç yerə getməmişəm və getməyəcəyəm, Tağıyevin fabriki nəzdindəki öz evimdə qalacam. Əmrə uyğun olaraq məndən partiyadan vəsiqə tələb edilir ki, bunu da mən təqdim edə bilməyəcəyəm, çünki heç bir siyasi partiyada işləməmişəm".

H.Z.Tağıyevin toxuma-əyirmə fabriki nəzdində yaradılan məktəb həm oğlan, həm də qız uşaqları üçün nəzərdə tutulurdu. Həmin məktəbdə fabrikada çalışan fəhlələrin hər iki cinsdən olan övladları, həmçinin Əhmədli və Zığ kəndlərindən gələn uşaqlar təhsil alırdılar. Arxiv sənədləri təsdiq edir ki, H.Z.Tağıyevin fabriki nəzdində yaşlılar üçün də axşam kursları fəaliyyət göstərib. H.Z.Tağıyevin Lifli maddələrin emalı Qafqaz səhmdar cəmiyyətinin direktoru 1916-cı il yanvarın 18-də Xalq Məktəblərinin 2-ci rayonu üzrə müfəttişi S.M.Qəniyevə ərizə ilə müraciət edərək xalq məktəblərinin proqramları üzrə məktəbin binasında fəhlələr üçün axşam məşğələlərinin açılmasını xahiş edir. Bakı quberniyası və Dağıstan vilayətinin Xalq Məktəbləri Direktorunun 1916-cı il fevralın 25-də Xalq Məktəblərinin 2-ci rayonu üzrə müfəttişi S.M.Qəniyevə göndərdiyi 2093 saylı məktubda qeyd edilirdi ki, həmin məşğələlərdə pedaqoji fəaliyyəti şəhər məktəbinin kursunu bitirmiş Abdullayev Mir Məcid tərəfindən həyata keçiriləcəkdir. Gələn tədris ilindən etibarən isə yaşlılarla məşğələlərin aparılması üçün daha münasib şəxsin axtarıb tapılması mənim tərəfimdən təklif edilmişdir. Həmin dövrdə fabrika nəzdindəki məktəbin müdirəsi xanım M.Reyn olmuşdur.

Azərbaycanda savadsızlığın aradan qaldırılmasında, ölkəmizdə təhsilin və məktəb işinin inkişaf etdirilməsində rolu və xidməti olan hər bir müəllim və pedaqoqun zəhməti xalqımız tərəfindən unudulmur və daim yüksək qiymətləndirilir. Törə xanım Zamanovanın da ölkəmizdə savadsızlığın aradan qaldırılmasında, uşaqların təhsil ocağı olan məktəblərə cəlb edilməsində və onlara dünyəvi təhsil verilməsindəki xidmətləri böyük hörmət və ehtiramla bu gün də anılır. Zəngin arxiv materialları içərisindən Törə xanım Zamanovanın pedaqoji fəaliyyətini əks etdirən sənədlərin araşdırılaraq tapılması və həmin sənədlər əsasında onun pedaqoji fəaliyyətinə dair bu məqalənin yazılması onun xatirəsinə hörmət və ehtiramla yanaşılmasının bariz nümunəsidir.

**Rafiq Səfərov,**
**Milli Arxiv İdarəsinin baş məsləhətçisi**

# Mentalitet dəyişməyib

## Getdikcə qadınların sayı azalır



**BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam edərsə, 2050-ci ilədək doğulan oğlanların sayı qızlardan 12-15 min çox olacaq. Bu isə çox ciddi demoqrafik problemlərin anonsu kimi qəbul edilə bilər.**

Azərbaycan ailələrində qədimdən oğlan uşaqlarına daha çox üstünlük verilib. Müasir dövrdə də bununla bağlı fikirlər bir o qədər dəyişməyib. Oğlanlara nəslin davamçısı kimi baxılır.

Gender məsələləri üzrə ekspert Aynur Veysəlovanın sözlərinə görə, Azərbaycan selektiv aborta üstünlük verən ölkələr arasında birinci yerdədir. Belə ki, son illərdə 100 qıza 105-107 oğlan düşürdüsə, indi bu nisbət də pozulub.

Qanunvericiliyə görə, Azərbaycanda selektiv abortların aparılması qadağandır. Cinayət Məcəlləsinin 141-ci maddəsinə görə, qanunsuz abortetmə beş yüz manatdan min manatadək miqdarda cərimə və ya altı ayadək müddətə islah işləri ilə cəzalandırılır.

*Maraqlıdır, selektiv abortlara görə cəza tədbirləri varsa, qızların sayı niyə azalır?*

**”Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova isə hesab edir ki, selektiv abortların bu saya çatması bir yox, bir neçə problemin cəmlənmiş formasıdır:** ”İnkişaf etmiş ölkələrdə abortların sayı aşağıdır, çünki

### *Durum Azərbaycanda gələcəkdə demoqrafik partlayışa gətirib çıxaracaq*

cəmiyyətdə qadınlara fərq qoyulmur. Həmin ölkələrdə valideyn düşünmür ki, qız uşağı ərə gedib əziləcək, cəmiyyətdə zəif biri kimi qiymətləndiriləcək. Əsas problemlərdən biri də erkən nikahlardı. Erkən nikahların sayını azaltmaq üçün tədbirlər aparılmalıdır. Selektiv abortlar birbaşa erkən nikahlara da bağlıdır. Qız uşaqlarını ali təhsildən yayındırıb, evliliyə cəlb etməməliyik. Dövlət tərəfindən də müəyyən dəstək olsa, bu sayların azalması üçün bir şey əldə etmiş olarıq.

Onu deyim ki, cinsi qız olduğuna görə dölün ana bətnindən kənarlaşdırılması halları artıq azalmağa başlayıb və rəqəmlər də bunu göstərir. Çünki Səhiyyə Nazirliyi bununla bağlı tədbirlər həyata keçirir, nəzarət edir. Hətta azyaşlı hamilə olanda qəyyumu olmadan onlara baxılması, abort edilməsi məsələsinə də ciddi nəzarət olunur. Əlbəttə ki, yol və digər qəzalarda daha çox kişilər dünyasını dəyişir. Həmçinin müharibədə şəhid olurlar. Bütün bunlar rəqəmlərə təsir edir. Bütün dünyada da tendensiya budur ki, kişilər daha çox dünyaya gəlir. Bu isə selektiv abortların nəticəsində olur. Məlum olduğu kimi, təkcə Azərbaycanda deyil, bir çox, xüsusən də Şərq ölkələrində oğlan uşaqları daha çox sevilir. Hər halda ölkəmizdə kişilər və qadınların sayının təqribən eyni rəqəmlərə gəlib çıxması yaxşı haldır”.

*M.Zeynalovanın sözlərinə görə, getdikcə qadınların sayının azalması gələcəkdə demoqrafik partlayış və digər neqativ hallara gətirib çıxara bilər:* ”Bu, çox ciddi şəkildə əhalinin sayının azalmasına, eyni cinslilərin evlənməsinə və yaxud əcnəbilərlə evliliklərin artmasına gətirib çıxara, genetik koda təsir edə bilər. Yəni bu məsələ bir çox sahələrə, hətta mədəniyyətə də təsir edə bilir”.

**Psixoloq Gülnarə Əliyeva isə problemin həlli yolunu maarifləndirmədə görür. Onun sözlərinə görə, belə halların qarşısını qadağalarla almaq olmaz. Çünki insan bir şeyə qərar veribsə, onu gizlində və ya aşkarda edəcək:** ”Yuxarı sinif şagirdlərindən başlayaraq, ali təhsil ocaqlarında da bu yöndə maarifləndirmə aparılmalıdır. Təəssüf ki, maarifləndirmə çox vaxt qadınlar, qızlar arasında aparılır. Bunu heç doğru hesab etmirəm. Nəzərə alsaq ki, abortları çox zaman kişilər xanımlara məcbur etdirir, deməli, maarifləndirmə hər iki tərəflə aparılmalıdır. Bundan başqa, yeni ailə qurmuş gənclərə qadın məsləhətxanalarında planlı hamiləlik, hamiləlikdən qorunmağın yolları haqqında müəyyən informasiyalar verilməlidir”.

**Şəymən**

# Azərbaycanlı modeli Türkiyədə döydülər



**”Miss Azərbaycan” Səmra Hüseynovanın İstanbulda başına iş gəlib.**

”Şərq” xəbər verir ki, model şirkətlərdən birinin yaşadığı məhəllədə fəaliyyət göstərən filialından 15 min 800 türk lirəsi qiyməti olan məhsul sifariş edib. Çatdırılan məhsulda isə problem çıxıb. Şirkət malı geri aparıb və yenisi üçün 20 faizlik endirim təklif edib. Səmra razılaşıb, endirim olmasa da, tezliklə yeni məhsula ehtiyacı olduğunu bildirib.

Daha sonra məhsul və pul müştəriyə qaytarılmayıb. Filialdan ona fabrikə müraciət etməyi məsləhət görüblər və müştərinin nömrələrini bloklayıblar.

Model filiala şikayətə getdikdə əməkdaşlar müştəriyə hücum edib, xəsarət yetiriblər. Hadisələr modelin ”TikTok” canlı yayımında öz əksini tapıb.

Əraziyə gələn polis isə müştərini günahkar bilib və onu 3 gün azadlıqdan məhrum edib. Bu hadisədən sonra model Türkiyəni tərk edərək Azərbaycana gəlib.

**Samirə**

# “O qədər dedi-qodu etdiniz ki..."

## Nadir əkizlərə dəstək oldu



**Müğənni Nadir Qafarzadə ötən gün birinci yarımfinalda məğlub olan Avroviziya təmsilçilərimiz Tural və Turan Bağmanovlardan yazıb.**

”Şərq” xəbər verir ki, o, qardaşların finala keçməməsi haqda bu sözləri qeyd edib:

”Yazıq uşaqlar pərt oldular. O qədər dedi-qodu etdiniz ki. Hələ gəncsiniz, uğurlar qarşıdadır”.

**Samirə**

# 50 manat cəriməni başa düşdük, lazımdır

## Amma elə küçələr var ki, zibil qutularının sayı çox azdır

**Bakıda bir sıra küçələrdə çəkiliş zamanı ərazilərdə zibil tullantılarının olması üzə çıxıb. Bəzi şəxslər zibilləri qutuya atmaq əvəzinə onları avtobus dayanacaqlarının dəmirlərinə bərkidir və ya yerə atırlar.**

Küçələrin hər gün adiyyəti qurumların əməkdaşları tərəfindən təmizlənməsinə baxmayaraq insanların mütəmadi olaraq yerə zibil atması acınacaqlı vəziyyəti ortaya qoyub. Məlumat üçün bildirək ki, qanunvericilikdə ətrafı zibilləyənlər üçün 50 AZN cərimə nəzərdə tutulub.

Sakinlər isə şəhərimizin təmizliyinə riayət etməməyi zibilqabıların çatışmazlığı ilə əlaqələndirirlər. Haqsız da sayılmazlar. Bakının bəzi küçələrində zibil qutuları çox azdır. Elə küçələr var ki, orada zibil qutusu ümumiyyətlə yoxdur. Əslində isə yaşayış binalarının ətrafından əlavə, adi küçələrdə 50 metrdən bir balaca zibil qutuları olmalıdır ki, yolla gedən şəxslər qutulardan istifadə edə bilsinlər. Çünki bəzən elə olur ki, bəzi Bakı sakinləri normal insan kimi əlində tutduğu kağızı, paketi atmaq üçün zibil qutusu axtarır, amma bir neçə küçəni adlasa da, istəyinə nail ola bilmir.

**Sosioloq Əhməd Qəşəmoğlu isə hesab edir ki, bu məsələ cərimələrlə yox, maarifləndirmə ilə həll olunmalıdır:** ”Bu problem ilk baxışda sadə görünsə də, əslində çox ciddi bir məsələdir. Bu



### *"Vəziyyətdən çıxış yolu tapmaq üçün həm inzibati cəzalar olmalı, həm də əhalinin özü bu məsələyə diqqət göstərməlidir"*

məsələyə diqqət ayırmaq lazımdır. Biz ölkəmiz haqqında xarici ölkələrdə nə qədər təbliğat aparsaq da, məlumat versək də, Azərbaycanın böyüklüyündən danışsaq da, ölkəmizə hər gün minlərlə xarici ölkə vətəndaşının hərəsi bir statusda gəlir, gedir. Onlar küçədə bizim natəmizliyimizi, yerə tüpürməyimizi, binadan zibil atdığımızı gördükcə, ölkə haqqında kifayət qədər yaxşı olmayan fikrə gəlirlər. Xarici ölkələrdə olanda əhalinin bu cür davranışı məndə o ölkə haqqında dərhal təsəvvür yaradır. İnsanın həmin ölkəyə qarşı həmin dəqiqədə ya məhəbbəti artır, ya soyuq münasibəti yaranır. Digər tərəfdən, daxilimizdə olan mədəni insanların özləri də bu işlərdən sıxılır. Ölkənin özü o mədəni davranışı olan insanlar üçün darıxdırıcı bir məkan olur. Ona görə də bu məsələyə çox ciddi fikir vermək lazımdır. Vəziyyətdən çıxış yolu tapmaq üçün həm inzibati ölçülər olmalı, həm də ictimai fəallıq, yəni əhalinin özü bu məsələyə diqqət göstərməlidir. Başqa ölkələrdə yerə zibil atan hansısa turistin gəlib qolundan tuturlar ki, bura sənə yaşadığın ölkə deyil, təmizliyə riayət etməlisən. Digər tərəfdən, bu barədə maarifləndirmə işi də geniş olmalıdır. İndiki vaxtda hər bir ölkə üçün onun əhalisinin küçədə, bacada özünü nə dərəcədə mədəni aparmaq göstəricisidir. Bu göstərici geridə olsa, nə qədər parklarımızı, küçələrimizi gözəlləşdirsək də, elə hesab edin ki, bu işlərimiz yarımçıq olur”. Sosioloq həmçinin qeyd edib ki, küçələrdəki zibil qablarının sayı da azdır: ”Zibil sahələri üçün az yerlər ayrılır. Hətta elə yerlər var ki, zibil qabları qoyulur, ancaq düzgün yerdə deyil”.

**Şəymən**

## Hərracın baş tutmamasına dair elan

”İcbari Sığorta Bürosu” Hüquqi Şəxslərin İttifaqının 03/04/2023 №-li, 03.04.2023-cü tarixli sifarişinə əsasən 1 ədəd ”LEXUS GS250” markalı, 99-AK-806 dövlət qeydiyyat nişanlı minik avtomibilinə (Sedan tipli, 2014-cü il buraxılışlı, ağ rəngli, BAN JTHBF1BL005011005, mühərrik №0998566) dair 04 may 2023-cü il, saat 10:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar (sonuncu) açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamış və bununla əlaqədar olaraq 04.05.2023-cü il tarixli hərracın baş tutması barədə yekun protokol tərtib edilmişdir.

**Hərracın Təşkilatçısı**
**”Əmlak Hərrac Mərkəzi” MMC**
**Ünvan: Bakı şəhəri, Yasamal ray., K.Kazımzadə 123.**
**Tel: (+99412) 539-47-22 ; (+99450) 210-66-47**
**e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**

## Bildiriş

*Hörmətli Səhmdar!*

”Sumqayıt Aşqarlar” ASC-nin Rəhbərliyi Sizə bildirir ki, 30 iyun 2023-cü il tarixində, saat 11:00-da Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi ünvanında yerləşən ”Sumqayıt Aşqarlar” ASC-nin inzibati binasında Cəmiyyətin Səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların növbəti ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxildir:

1. Cəmiyyətin 2022-ci il üçün maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabat;
2. Cari məsələlər.

Yığıncaq iştirakçılarının qeydiyyatı saat 10:00-da başlanır. Yığıncaq 11:00-da başlanır. Qeydiyyat üçün pasport və ya şəxsiyyətinizi təsdiq edən digər sənəd təqdim olunmalıdır. Səhmdarların növbəti ümumi yığıncağında şəxsən özünüz və ya notarius tərəfindən təsdiq edilmiş etibarnamə əsasında nümayəndəniz iştirak edə bilər. Növbəti ümumi yığıncağın gündəliyində duran məsələlər ilə əlaqədar Cəmiyyətin hüquqşünası N.İ.Behbudova müraciət edə bilərsiniz. Əlaqə telefonu: (051) 873-40-13

Göstəricilər
Məbləğ, manatla
1. 200. Malların təqdim edilməsindən (işlərin görülməsindən, xidmətlərin göstərilməsindən) gəlir 221,018.11
2. 200.1. Malların təqdim edilməsindən gəlir 44,000.00
3. 200.1.2. Topdan satışdan gəlir 44,000.00
4. 200.2. İşlərin görülməsindən və xidmətlərin göstərilməsindən gəlir
177,018.11
5. 203. Daşınan və daşınmaz əmlakın icarəyə verilməsindən gəlir
12,689.81
6. 218. Ümumi gəlirlər, gəlir
233,707.92
7. 220. Çıxılmalardan sonra ümumi gəlir
233,707.92
8. 221. Malların təqdim edilməsi, iş görülməsi və xidmət göstərilməsi üzrə xərclər
303,013.67
9. 221.1. Əmək haqqı və ona bərabər tutulan ödəmələr
208,549.75
10. 221.1.2. - yerli işçilər üzrə
208,549.75
11. 221.2. Sosial sığorta haqları
45,283.99
12. 221.3. Xammal və materiallar
43,288.80
13. 221.10. Su və kanalizasiya xərcləri
76.27
14. 221.11. Rabitə xərcləri
411.84 15. 221.13. Bank xidməti üzrə xərclər
1,899.69
16. 221.15. Bilavasitə malların təqdim edilməsi (işlərin görülməsi, xidmətlərin göstərilməsi) ilə bağlı sair xərclər 3,503.33
17. 227. Amortizasiya ayırmaları, əsas vəsaitlərin təqdim edilməsi və ləğvi üzrə gəlirdən çıxılan xərclər
101,726.53
18. 227.1. Binalar, tikililər və qurğular üzrə hesablanmış amortizasiya 38,031.52
19. 227.2. Maşınlar və avadanlıq üzrə hesablanmış amortizasiya
62,054.19
20. 227. Nəqliyyat vasitələri üzrə hesablanmış amortizasiya 1,312.30
21. 227.7. Digər əsas vəsaitlər üzrə hesablanmış amortizasiya 328.52
22. 230. Sığorta üzrə xərclər
2,490.53
23. 230.2. Ödənilmiş sığorta haqları
2,490.53
24. 233. Gəlirdən çıxılan vergilər və yığımlar 35,505.14
25. 233.1. Torpaq vergisi
27,455.00
26. 233.2. Əmlak vergisi
8,050.14
27. 234. Cəmi xərclər
422,735.87
28. 236. Ümumi gəlirdən çıxılan xərclər
422,735.87
29. 239. Zərər (sət. 236-sət.220)
209,027.95
30. 242. Mənfəət vergisinin dərəcəsi
20.00


**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi:**
**“Muğanbank” ASC baş ofis**
**Kod: 506162**
**VÖEN: 1400122681**
**M/H: AZ41NABZ01350100000000018944**
**S.W.İ.F.T.: MUGAAZ22**
**AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00**
**VÖEN 1300414651 İndeks: 0330**

**Tirajı: 1550 Sifariş: 1167**



## Dünyanın ilk elektrikli yolu İsveçdə açılacaq

**Tədqiqatçılar elektrikli avtomobil sürərkən onun enerjisini doldura biləcək üsul təqdim edib.**

Bakupost.az xəbər verir ki, İsveç 2035-ci ilə qədər elektrik yolları inşa edəcək.

Yolun inşası 2025-ci ildə başlayacaq və ümumi uzunluğu 3 min kilomet olacaq. Bu yol sistemi elektrikli avtomobillərin hərəkət etdiyi müddətdə də enerji doldura bilməsinə imkan verəcək. İnduktiv şarj adlanan yeni texnologiya elektriklə işləyən avtomobilləri hərəkətdə və ya fasilədə enerji ilə dolduracaq.

Bu prosesin işləməsi üçün yolun altına metal rulonlar basdırılacaq.Bu rulonlar, maqnit tezliyini nəqliyyat vasitələrinin altında yerləşən bəzi xüsusi qəbuledicilərə ötürəcək.

*Qeyd edək ki, bu texnologiyanın tezliklə ABŞ yollarında istifadə olunacağı da bildirilib.*

## Ən çox kitab oxunan ölkə Çindir

### Azərbaycan bu siyahıda 89-cu yerdə qərarlaşıb



**İngiltərənin Dünya Mədəniyyəti Hesab İndeksi dünyanın ən çox kitab oxunan ölkələrini müəyyənləşdirib.**

Dünyada ən çox kitab oxunan ölkələr siyahısında əsas yeri Asiya ölkələri tutur. Bakupost.az ən çox kitab oxunan ölkələri təqdim edir.

1. Çin
2. ABŞ
3. İndoneziya
4. Pakistan
5. Nigeriya
6. Braziliya
7. Banqladeş
8. Rusiya
9. Meksika
10. Etiopiya
11. Yaponiya
12. Filippin
13. Misir
14. Konqo
15. Vyetnam
16. İran
17. Türkiyə
18. Türkiyə
19. Almaniya
20. Tayland

*Qeyd edək ki, Azərbaycan bu siyahıda 89-cu yerdə qərarlaşıb.*

## Afra ilk dəfə Mərtlə eşq iddialarına münasibət bildirdi



**Xəbər verdiyimiz kimi, bir neçə aydır "Yalı Çapkını" serialının baş rol aktyorları Afra Saraçoğlu ilə Mərt Ramazan Dəmirin eşq yaşadıqları ilə bağlı iddialar yayılıb.**

**Axşam.az xəbər verir ki, ötən gün jurnal çəkilişləri üçün Antalyadan qayıdan aktrisa obyektivlərə tuş gəlib. O, uzun müddətdir həmkarı ilə aralarında gəzən şayiələrlə bağlı sualları qısa şəkildə cavablayıb:**

**"Mərt çox sevdiyim, çəkilişlərdən kənarda da görüşməkdən məmnun olduğum dostumdur. İzmirə tətilə də dostlarımızla birgə getmişdik".**

***Qeyd edək ki, onlar haqqında eşq iddiaları çıxandan sonra aktyor Mert Yazıcıoğlu Afra ilə 4 illik münasibətlərini sonlandırmışdı. Aktyor bundan sonra aktrisa Dilan Çiçek Deniz ilə münasibətə başlayıb.***

## Middlton 4 il əvvəlki geymini təkrarladı



**Şahzadə Uilyamın həyat yoldaşı şəhzadə Keyt Middlton yenidən geyimi ilə diqqət çəkib.**

**Axşam.az xəbər verir ki, Bukinqem sarayının bağçasında ziyafət təşkil olunub. Middlton "Elie Saab"dan olan paltarını "Kiki McDonough"un sırğaları ilə tamamlayıb.**

**Maraqlı məqamlardan biri də Uilyamla Middltonun 2019-cu ildə (red. Royal Ascot at yarışında) geyindikləri tərzi təkrarlamasıdır. Belə ki, onlar həmin ildə də eyni libas və şlyapalarla obyektivə tuş gəlmişdilər. Bu, Kral III Çarlzın hakimiyyəti dövründə sarayın bağçasında keçirilən ikinci və onun tacqoyma mərasimindən sonra baş tutan ilk ziyafət olub.**

## Fotoşopu aktrisaya baha başa gəldi



**Son paylaşdığı foto türkiyəli aktrisa Hilal Altınbilekə baha başa gəlib.**

**Axşam.az xəbər verir ki, sənətçi şəkildə fotoşopdan istifadə etməyə çalışıb. Belə ki, qarın bölgəsini incə göstərməyə çalışan Hilal biləyinin əyildiyinin fərqinə varmayıb və fotonu izləyiciləri ilə bölüşüb. İzləyicilər aktrisanın paylaşımına "Əlin qırılıb, gülmə məncə", "Fotoşopu elə edib ki, qolu qırıq düşüb" kimi şərhlər gəlib.**

***Qeyd edək ki, aktrisa sonuncu dəfə "Bir zamanlar Çukurova" serialında rol alıb.***



# Torpağı qazdıqca almaz çıxır

## İnsanlar parka axın edir






**Təbiətdən həzz almaq üçün dostlarınız və ya ailənizlə getdiyiniz adi bir park həyatınızı dəyişə bilərmi? İnanılmazdır, 10 min kilometr uzaqlıqda olan bu yerin torpağından almaz, yaqut fışqırır. Üstəlik, tapdığınız hər şey tamamilə sizindir. Parkın sirri və qazıntılarında üçüncü dəfə almaz tapan və bütün dünyanın bəhs etdiyi macərasevər gəncin yaşadıqları ilə bir az sonra tanış olaq.**

İndi isə bir az ətraflı...Dünyanın bir çox bölgəsinin özünəməxsus ziyarətçiləri var. Bu regionların ən diqqət çəkənlərindən biri, şübhəsiz ki, ABŞ-dir. Ölkənin cənubundakı Arkanzas ştatında parkı ziyarət edən hər kəsin bir məqsədi var, almaz tapmaq. Dünyanın hər yerindən gələn ziyarətçilərlə dolu olan "almaz parkı"nın sirri 1800-cü illərə gedib çıxır.

Hər şey ABŞ-də bir gəncin təsadüfən yıxıldığı parkda almaz tapması ilə başlayıb. Almazı çox baha qiymətə satan gənc başına gələnləri ətrafdakılara danışıb. Parkdakı almazın sirri gündən-günə bölgəyə yayılır, daha da önəmlisi, parkda almazla qarşılaşmaq ümidi ilə çox sayda insan əraziyə axın edir. Bura gələnlər çox nadir daşlarla qarşılaşırlar, onların az hissəsi brilyantlar tapır. Bütün bunlar parkı illər boyu diqqət mərkəzində saxlamağa kifayət edir. Bu unikal bölgədə təkcə almaz deyil, yaqut, safari kimi daşlar da var. Hətta burada qədim əşyalar da üzə çıxarmaq mümkündür.

Parkda almaz axtarışının tamamilə qanuni olması hər şeyi daha cəlbedici edir. Üstəlik, qiymətli daşları tapmaq üçün bahalı alət və avadanlıqlara da ehtiyac yoxdur. Bu yaxınlarda parkda tapılan qiymətli daş ABŞ vətəndaşı David Andersonun tapdığı çəhrayı almaz olub. Bir neçə həftə əvvəl Andersonun tapdığı daş xəbəri eşidən hər kəsə bir daha ümid verib. O, tapdığı 3,29 karatlıq çəhrayı almazı görəndə heyrətə gəlib, lakin bu, onun ilki deyildi. Onu təəccübləndirən almazın ölçüsü idi. Andersonun kəşfindən sonra park rəsmiləri daş-qaşın parkın 37,5 hektarlıq almaz axtarış sahəsinə səfər zamanı tapıldığını bildiriblər. Anderson, "Əvvəlcə bunun kvars olduğunu düşündüm, amma niyə belə parlaq olduğuna şübhələndim. Əlimə götürəndə onun almaz olduğunu bildim" deyib. Brilyant parkı haqqında ilk dəfə 2007-ci ildə televiziyadan eşidən və o vaxtdan bəri boş vaxtlarında parka gedən Anderson bunları deyib: "İlk 1,5 karat ağ almazımı tapanda parka aludə oldum". Anderson 2011-ci ildə 3,83 karatlıq sarı almaz, 2014-cü ildə isə 6,19 karatlıq ağ almaz tapmışdı. Digərləri kimi Anderson da son kəşfini yaşadığı ərazidəki zərgərlərə satmağı planlaşdırır. Parkda tərcüməçi işləyən Tayler Markham nadir daşın noxud boyda və çəhrayı rəngdə olduğunu bildirib. Təkcə bu il 124 brilyantın tapıldığı parkda ziyarətçilərə qazma işləri apara bilmələri üçün avtomobil kirayəsi də göstərilir. 1906-cı ildən bəri 75.000-dən çox brilyantın tapıldığı park ABŞ-də indiyə qədər tapılan ən böyük almazın aşkar edildiyi yer kimi qeydə alınıb. 1924-cü ildə bölgədən çıxarılan 40,23 karatlıq çəhrayı tökmə ağ almaz tarixdə öz yerini tutub. "Sem dayı" ləqəbli almaz hazırda Vaşinqtondakı "Milli Təbiət Tarixi Muzeyində" nümayiş etdirilir. Təbii ki, qiymətli daşlardan ibarət olan və əsrlər boyu varlığını qoruyan bu parkın illərlə sirrinin nə olduğu olduqca maraqlıdır. Demək olar ki, ora gedən hər kəs çox qiymətli olmasa da, bir daş tapmadan geri qayıtmır. Bu bir həqiqətdir ki, parkda insan əli ilə yaradıla bilməyəcək qədər çox daş var. Park haqqında ümumi inanc ondan ibarətdir ki, o, əsrlər əvvəl baş vermiş vulkan püskürmələri nəticəsində yaranmış ola bilər. Təbii ki, almazların bu gün də tapılması parkın necə yaranmasından daha çox maraq yaradır. Ziyarətçilər parkın füsunkar tarixi və almazlarla əlaqəsi haqqında məlumat verən bələdçili turlar keçirə bilərlər. Turlar qiymətli daşları ən yaxşı şəkildə "ovlamaq" üçün dəyərli məsləhətlər verə bilər.

**Turan**



# Tarixi yenidən yazacaq kəşf

## Amerikalılar çinli çıxdı

**Min illər əvvəl Rusiya və Alyaskanı birləşdirən Berinq boğazında quru körpünü keçən sibirlilərin Amerikanın yeganə əcdadları olduğu söylənilirdi.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Çin Elmlər Akademiyasının tədqiqatçıları qitəyə ilk immiqrantların Çinin şimal sahil bölgəsindən gəldiyinə dair sübutları təsvir ediblər.

Həmin araşdırmaya görə, insanlar Amerikaya 26 min il əvvəl Çindən gəliblər. Başqa sözlə, Amerika qitəsinə ilk köç göstərilən tarixdən 10 min il əvvəl baş verib.

Çinli komanda analardan uşaqlarına ötürülən mitoxondrial DNT-ni təhlil edərək, Çin qrupu bir qadın nəslini izləyib və Çili, Peru, Boliviya, Braziliya, Ekvador, Meksika və Kaliforniyadakı əsas əhali ilə Şərqi Asiya Paleolit dövrü populyasiyalarının əlaqəsini tapıb.

Amerikalıların Asiya mənşəyinin bilindiyindən daha mürəkkəb olduğunu vurğulayan araşdırmanın ilk müəllifi Dr Yu-Çun Li isə aşağıdakı açıqlamaları verib: "Sibir, Melaneziya və Cənub-Şərqi Asiyada əvvəllər müəyyən edilmiş əcdad mənbələrinə əlavə olaraq, Çinin şimal sahillərinin də amerikalıların genafonduna töhfə verdiyini aşkar etdik".

Tədqiqat həmçinin 19.500 il əvvəl iqlimin yaxşılaşması səbəbindən əhalinin sayının sürətlə artdığını göstərən başqa bir miqrasiya hadisəsinin aşkar edilməsinə də səbəb olub.

Çünki əldə edilən nəticələr iki miqrasiya hadisəsini ortaya çıxarıb.

Bunlardan birincisi, 19 min 500 ilə 26 min il əvvəl, buz örtüyünün ən yüksək həddə çatdığı və Şimali Çində iqlim şəraitinin, yaşamaq üçün əlverişsiz olduğu zaman baş verib. İkincisi isə ərimə dövründə, 19 min ilə 11 min 500 il əvvəl meydana gəlib.

**Nihat Müzəffər**

## Araşdırma açıqlandı

### Buzlaqlar proqnozlaşdırılandan daha tez əriyəcək



**ABŞ-də aparılan elmi araşdırmaların nəticələri buzlaqların əvvəlki proqnozlardan daha sürətlə əriyəcəyini ortaya çıxarıb.**

Kaliforniya Universiteti və ABŞ Aerokosmik Agentliyinin (NASA) birgə apardığı araşdırmada bildirilir ki, Qrenlandiyada böyük bir buz kütləsi gelgit hərəkətləri səbəbiylə daha sürətlə əriyir və bu dəniz səviyyəsinin yüksəlmə sürətinə böyük ölçüdə təsir edir. Elm adamları Qrenlandiyanın şimal-qərbindəki böyük bir buzlaqın okean gelgitləri ilə qarşılıqlı əlaqədə olduğunu və bunun əvvəllər izah olunmayan ərimə potensialına imkan verdiyini bildirib. Peyk radar məlumatlarından istifadə etməklə əldə edilən nəticələrdə Petermann adlı buzlağın quru ilə əlaqəsini kəsərək okeanda üzməyə başladığı müəyyən edilib. Bu da sürətlə buzlağın əriməsinə səbəb olur. Tədqiqatın aparıcı müəllifi alim Enriko Ciraci izah edib ki, sözügedən buzlaq kütləsi 2 ilə 6 kilometr arasında hərəkət edir: "Bu, mühüm tapıntıdır. Elm adamları arasında ənənəvi fikir buzlaqın yer xəttinin gelgitlərlə hərəkət etməməsi idi ki, bu da dəniz səviyyəsinin yüksəlməsini sürətləndirə biləcək başqa bir böyük ərimə effektini göstərir". Tədqiqatın həmmüəllifi Erik Rignot, kəşfin "dəniz səviyyəsinin qalxması proqnozlarını 200 faizə qədər artıracağını" söyləyib.

**Turan**

## Həkimlərdən çağırış

### "Süni intellektə son qoyun"



**Süni intellektin milyonlarla insanın sağlamlığına zərər verə biləcəyini və bəşəriyyət üçün ekzistensial təhlükə yarada biləcəyini deyən həkimlər və ictimai səhiyyə mütəxəssisləri, tənzimləmələr çıxarılana qədər süni intellektin inkişafının dayandırılmasını istəyiblər.**

Elon Mask da daxil olmaqla texnologiya dünyasının aparıcı adları, lazımi qaydalar edilənə qədər süni intellekt araşdırmalarını dayandırmağa çağırıb.

Oxşar xəbərdarlıq tibb dünyasından da gəldi.

Süni intellekt xəstəliklərin diaqnozunu təkmilləşdirmək, xəstələri müalicə etməyin daha yaxşı yollarını tapmaq və səhiyyədə inqilab etmək potensialına malikdir.

"BMJ Global Health" jurnalında yazan Böyük Britaniya, ABŞ, Avstraliya, Kosta Rika və Malayziyadan olan sağlamlıq ekspertlərinin fikrincə, süni intellektin inkişafı həm də sağlamlıq üçün mənfi təsirlər yarada bilər.

Onlar deyiblər ki, süni intellektin səhvləri xəstələrə zərər verə bilər, məlumatların məxfiliyi və təhlükəsizliyi ilə bağlı problemlər yarana bilər.